RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 73 (9818) 15 aprel 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# "RUHLAR ŞƏHƏRİ"NİN QİSASI

I Qarabağ müharibəsi dövründə Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi statusunu daşıyırdı.

Münaqişənin ilk dövrlərində keçmiş DQMV-dəki azərbaycanlıların yaşadıqları kəndlərə, habelə ermənilərlə qonşu kəndlərdə yaşayan əhaliyə Ağdam vasitəsilə yardımlar çatdırılır, kritik məqamlarda kömək göstərilir, həmin kəndlərdən didərgin salınanlar ən əvvəl Ağdama pənah gətirirdilər.

Sonralar Ağdamda altı könüllü özünümüdafiə batalyonu təşkil olundu və münaqişənin hərbi mərhələsi başladı.

**Təəssüf ki, Azərbaycana o dövrdə rəhbərlik edənlər maymaqlıq və qorxaqlıq göstərir, əhalinin müdafiəsinə lazımi diqqət yetirmirdilər.**

*Hətta ermənilərin silahlandığı bir dövrdə rəsmi qərarla insanlardakı ov tüfəngləri belə əllərindən alındı.*

**AXC-Müsavat cütlüyünün iqtidarı dövründə Ağdam daha ağır vəziyyətə salındı.**

**"Bəy"lər torpaqların müdafiəsindən çox ciblərinin hayına qalırdılar...**

"Cəbhəçilər"in müdafiə naziri R.Qazıyev isə xəyanət yolu ilə Şuşanın düşmənlərə verilməsinə kömək göstərəndən sonra Ağdama gələrək burada iki özünümüdafiə batalyonunun başçıları arasında qan düşmənçiliyi saldı, torpaqların müdafiəsini zəiflətdi.

Beləliklə, Ağdamın düşmən tərəfindən işğalına şərait yaradıldı.

❖ ❖ ❖

*O dövrdə respublikanın hər bir guşəsindən igid oğullar Ağdama gələrək könüllü özünümüdafiə batalyonlarına üzv yazılır, torpaqların müdafiəsində qanlarını və canlarını əsirgəmirdilər.*

**Ağdamlılar bu gün də həmin döyüşlərdə şəhid olanları doğma övladları sayır, xatirələrini daim əziz tuturlar.**

Lakin qüvvələr nisbəti bərabər deyildi!

*Erməniləşdirilmiş sovet ordusunun nizami hissələri sovet silahları ilə bizə qarşı döyüşürdülər.*

**Silah-sursatın çatmadığı, nizami ordunun qurulmadığı, özünümüdafiə batalyonlarının vahid mərkəzə tabe olmadığı və vahid qaydada idarə edilmədiyi bir şəraitdə vəziyyət getdikcə pisləşirdi.**

Həmin dövrdə düşmən ən ağır və ciddi zərbəni Ağdamdan alır, Ağdam batalyonları onlara daha çox itkilər yaşadırdılar.

*Lakin rəhbərsizlik və başıpozuqluq, AXC-Müsavat cütlüyünün xəyanətləri və səriştəsizliyi Ağdamın da düşmən əlinə keçməsinə imkan yaratdı.*

**Düşmən isə ən çox zərbə aldığı və ziyan gördüyü Ağdamdan əvəzini çıxmağa başladı!**

Ağdamlıların qabaq-qənşər döyüşlərdə onlara etdiklərinin qisasını boş qalmış şəhərin və digər yaşayış məntəqələrinin daşından, torpağından, bina və qurğularından, bağ və meşələrindən, məscid və mədəni abidələrindən, hətta qəbiristanlıqlarından aldı.

*Fars qardaşları ilə birləşərək evləri yağmaladılar, su və kanalizasiya borularını, binaların daşını, taxtasını, dəmirini, qapı və pəncərələrini söküb daşıyaraq İrandakı tikinti materialları bazarında satdılar.*

**Beləliklə, bir vaxtlar Azərbaycanın ən zəngin, yaraşıqlı, gözəl yaşayış məntəqələrindən biri olan Ağdamı "ruhlar şəhəri"nə çevirdilər.**

**Dünyanın etiraf etdiyi "ruhlar şəhəri"nə!**

5

## Beynəlxalq Əmək Təşkilatı sosial məsələlərlə bağlı ölkəmizin inkişaf prioritetlərinə dəstək verəcək



### Prezident İlham Əliyev Beynəlxalq Əmək Təşkilatının Baş direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul edib.

2

## Dəyərə çevrilmiş ömür



Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir. Görkəmli alim milyonların qəlbində daim dərin hörmət və ehtiramla, rəğbətlə xatırlanır. O, böyük bir mənəvi dünyanın adamı idi. Aydın və nurlu bir şəxsiyyət idi. Alicənablığına, səmimiyyətinə, xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış bu insan, ilk növbədə, həm də böyük bir ziyalı idi. Sözün həqiqi mənasında, bu böyük ziyalının insanlara bəxş etdiyi nur onun elminin dərinliyindən, mənəvi paklığından, intellektinin kamilliyindən, şəxsiyyət ucalığından və bütövlüyündən qidalanmışdır.

10

## Azərbaycan "Böyük Çin səddi"ni sürətlə keçir

### Ölkələrimiz arasında strateji əməkdaşlıq qarşılıqlı maraqlara xidmət edir



Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsini ilk gündən dəstəkləyib. Bu özünü təkcə ictimai bəyanatlarla deyil, həm də sərmayə yatırımında da göstərib. "Biz Xəzər dənizinin ən böyük limanını inşa etdik. Bu gün bizim gəmiqayırma zavodumuzda altı gəmi inşa olunur. Bu zavodun sifariş siyahısı doludur. Biz dəmir yollarımızı müasirləşdirdik, hətta Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstandan keçən hissəsinə əlavə investisiya yatırdıq. Hazırda onun yükötürmə qabiliyyəti 5 milyon tondur. Zənnimizcə, Çindən gələn yüklərin bir hissəsi Zəngəzurdan, Zəngilan istiqamətindən keçə bilər", - deyə Prezidentimiz bildirmişdir.

Azərbaycan Qlobal Cənubun fəal ölkəsidir və Çin burada çox vacib rol oynayır. Çin bizim 4 il sədrlik etdiyimiz Qoşulmama Hərəkatının üzvüdür. Beləliklə, bu, çoxşaxəli münasibətdir, olduqca güclüdür və böyük gələcək potensialı var.

8

## Şərtimiz dəyişməzdir



Azərbaycan dəfələrlə erməni tərəfinin daha iki şərti də həyata keçirməli olduğunu xatırladıb. Birincisi, Ermənistan konstitusiyasını dəyişməlidir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunub.

Aprelin 11-13-də Türkiyədə keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında keçirilən görüşdə də bu məsələlər bir daha müzakirə edilib. Tərəflər "Azərbaycan ilə Ermənistan arasında Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" sazişin mətninin yekunlaşdırılmasından sonra normallaşma prosesinin hazırkı vəziyyətini müzakirə ediblər. Nazirlər dialoqu davam etdirməyə hazır olduqlarını bildiriblər.

9

## Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi pozmağa çalışır



Avropa İttifaqı yalnız indi deyil, əvvəlki dövrlərdə də müxtəlif yollarla ölkəmizdə vəziyyəti gərginləşdirməyə cəhdlər göstərib. Qərb mediasında tez-tez yalanlarla dolu olan anti-Azərbaycan təbliğatı təşkil olunub. Artıq bu gün Azərbaycan maliyyə sisteminə tam nəzarət edir, ölkəmizə qarşı çirkin niyyət güdən xarici qüvvələrin əl-ayağı yığışdırılıb. Yerli QHT-lərə, əslində, müxalifətin qollarına verilən bütün qrant adlanan vəsaitlər indi qeydiyyatdan keçməlidir. Bütün bunlarla barışmaq istəməyən Qərb təşkilatlarının "yaradıcı" fəaliyyəti və müxtəlif kuryerlər vasitəsilə Gürcüstandan Azərbaycana pul daşınmasını təşkil edir. Bütün bunlar ifşa olunduqdan sonra isə Qərb mediasında ölkəmiz əleyhinə yalanlar, uydurmalar yer alır. Qərbin məqsədi Ermənistan vasitəsilə Cənubi Qafqazda gizli məqsədlərinə çatmaqdır.

Azərbaycan daim sülhün və sabitliyin tərəfdarıdır. Hansısa mübahisəyə və münaqişəyə səbəb ola biləcək məsələlərin danışıqlar yolu ilə həll olunmasına üstünlük verir. Azərbaycan müharibə başa çatandan sonra dərhal Ermənistanı sülhə, əmin-amanlığa dəvət edib. Amma Fransanın və başqa Qərb ölkələrinin diktəsilə oturub-duran rəsmi İrəvan sülh sazişi imzalamağa tələsmir. Havadarlarına arxalanaraq danışıqlar prosesini uzatmağa çalışır. Ümid edir ki, əgər gələcəkdə hər hansı bir müharibə olarsa, Fransa və başqa Qərb ölkələri onun yanında olacaq. Amma Ermənistan ciddi yanılır.

9

# Beynəlxalq Əmək Təşkilatı sosial məsələlərlə bağlı ölkəmizin inkişaf prioritetlərinə dəstək verəcək

## Prezident İlham Əliyev Beynəlxalq Əmək Təşkilatının Baş direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə əmək, məşğulluq, habelə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər və əldə olunan uğurlar qeyd edildi.

Prezident İlham Əliyev torpaqlarımızın işğal altında olduğu dövrdə bütün infrastrukturun tamamilə məhv edildiyini xatırladaraq vurğuladı ki, işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa və quruculuq işləri ilə yanaşı, həmin ərazilərə qayıdan insanların işlə təmin edilməsi ən vacib məsələlərdən biridir. Dövlətimizin başçısı bununla bağlı Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən qonaq Azərbaycan ilə rəhbərlik etdiyi təşkilat arasında layiqli əmək üzrə 2 proqramın uğurla icra olunduğunu xatırladaraq, hazırda "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın layihəsi üzərində işlərin davam etdirildiyini dedi.

Jilber Hunqbo Azərbaycanın DOST konsepsiyası modelinin öyrənilməsinin əhəmiyyətinə toxundu, sosial sahədə həyata keçirilən islahatlarla bağlı təcrübənin bölüşdürülməsinin vacibliyini vurğuladı.

O, COP29 çərçivəsində ədalətli keçid üzrə səmərəli müzakirələrin aparıldığını dedi və bunun nəticəsi olaraq Avropa və Mərkəzi Asiya üzrə Regional İşçi Qrupunun yaradılmasını xüsusilə qeyd etdi.

Jilber Hunqbo Beynəlxalq Əmək Təşkilatının sosial məsələlərlə bağlı ölkəmizin inkişaf prioritetlərinə dəstək verəcəyini bildirdi.

# "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il noyabrın 6-da Bişkek şəhərində imzalanmış "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2025-ci il*

# "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanunu) 14.8-1.8-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.8-1.9-cu maddə əlavə edilsin:

"14.8-1.9. işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış və 2025/2026, 2026/2027, 2027/2028-ci tədris illərində dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrinə qəbul olunmuş, habelə həmin təhsil müəssisələrində təhsil almaqda olan şəxslər.".

**Maddə 2.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152 (Cild I); 2024, № 5 (I kitab), maddə 501) 20.8-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"20.8. Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqlarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.".

**Maddə 3.** Bu Qanun 2025-ci il sentyabrın 15-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2025-ci il*

# Cəlilabad rayonunun Sərhədabad-Əliabad-Zəhmətabad-Soltankənd avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeddi min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Sərhədabad-Əliabad-Zəhmətabad-Soltankənd avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2025-ci il*

# Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənova

Hörmətli Faiq müəllim!

Sizi 85 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycanda şahmatın inkişaf etdirilməsi, geniş təbliği və yeni nəsil şahmatçıların yetişməsi işinə mühüm töhfələr vermisiniz. Ölkəmizdə çoxsaylı şahmat yarışlarının uğurlu təşkilində böyük xidmətləriniz vardır.

Dünya şahmat ictimaiyyəti uzun illərdən bəri Sizi 150-dən artıq mötəbər beynəlxalq turnirdə, o cümlədən FIDE Qran-priləri, Ümumdünya Şahmat Olimpiadası və Dünya Kubokunda ədaləti qorumuş nüfuzlu baş hakim kimi tanıyır, təqdir edir və səmərəli fəaliyyətinizə ehtiramla yanaşır.

Azərbaycan şahmat məktəbinin inkişafına töhfələriniz dövlət tərəfindən yüksək qiymətləndirilmiş və Siz dəfələrlə təltiflərə layiq görülmüşsünüz.

Sizə bu əlamətdar gündə ən xoş arzularımı yetirir, uzun ömür və möhkəm cansağlığı arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2025-ci il*

# Aqroparkların fəaliyyətinin təşkili, idarə olunması və inkişafı sahəsində əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dövlət tərəfindən aqroparkların yaradılması və aqroparkların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tədbirləri həyata keçirmək səlahiyyəti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

2.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"nin 3.7-ci bəndinin ikinci cümləsində, 4.3-cü bəndinin üçüncü cümləsində, 5.1.6-cı, 6.1.10-cu, 8.6.6-cı yarımbəndlərində və 8.8-ci bəndində nəzərdə tutulmuş aktları altı ay müddətində qəbul etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddə 1359) ilə təsdiq edilmiş Əlavə 1 - "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 2-ci hissəsinə, 10.1-ci, 10.4-cü və 11.1-ci bəndlərinə "göstərilməsi," sözündən sonra "aqroparklar və" sözləri əlavə edilsin.

5. "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822 (Cild I); 2024, № 6 (I kitab), maddə 661) 2.1-1-ci bəndində "aqroparklara münasibətdə isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparka münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, digər aqroparklara münasibətdə isə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndinin üçüncü abzasına "məhəlləsinin və" sözlərindən sonra "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış" sözləri əlavə edilsin;

6.2. 9-cu hissənin "Göstərdiyi xidmətlər" sütununa aşağıdakı məzmunda 4-cü bənd əlavə edilsin:

"4."Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxs tərəfindən aqroparkın (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqropark istisna olmaqla) rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi".

7. "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli 1257 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 27 (Cild I) 2.1-ci bəndində "aqroparkların" sözü "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın" sözləri ilə əvəz edilsin.

8. "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1370 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 317 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"də "səlahiyyətli orqan" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, "idarəedici təşkilat" dedikdə (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqropark istisna olmaqla) Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxs nəzərdə tutulur;

2.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş"Aqroparklar haqqında Nümunəvi Əsasnamə"də nəzərdə tutulmuş idarəedici təşkilatın vəzifələrini və hüquqlarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparka münasibətdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir.";

8.2. 3.2-ci bənd ləğv edilsin;

8.3. həmin Fərmanla təsdiq edilmiş "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"nin 5.1.3-cü yarımbəndi ləğv edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1371 (Cild I); 2024, № 6 (I kitab), maddə 665) ilə təsdiq edilmiş "İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddə "aqroparkların" sözü "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın" sözləri ilə əvəz edilsin;

9.2. 2.1.2-ci yarımbənddə "və yeni iqtisadi zonaların" sözləri ", həmçinin yeni sənaye parklarının və sənaye məhəllələrinin" sözləri ilə əvəz edilsin;

9.3. 3-cü hissə üzrə:

9.3.1. 3.1.2-ci və 3.1.3-cü yarımbəndlərdə "iqtisadi zonaların" sözləri "sənaye parklarının və sənaye məhəllələrinin" sözləri ilə əvəz edilsin;

9.3.2. 3.1.7-ci yarımbənddə "aqroparkların" sözü "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən ", özəl aqroparkın əsasnamə layihəsinə rəy vermək" sözləri çıxarılsın;

9.3.3. 3.2.6-cı yarımbənddə "dövlət tərəfindən yaradılan aqroparklarda" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkda" sözləri ilə, "dövlət tərəfindən yaradılan aqroparkın" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkın" sözləri ilə əvəz edilsin;

9.3.4. 3.2.8-ci yarımbənddə "dövlət tərəfindən yaradılan aqroparklarda" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqroparkda" sözləri ilə əvəz edilsin;

9.3.5. 3.2.14-cü və 3.2.15-ci yarımbəndlərdə ismin müvafiq hallarında "aqroparklar" sözü ismin müvafiq hallarında "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Yevlax rayonunda yaradılmış aqropark" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297 (Cild I); 2024, № 4, maddə 400,№ 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1360) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "10. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 5.2.7-ci yarımbənd üzrə:

10.1.1. "Tədbirin adı", "aralıq nəticələr" və "yekun nəticələr" sütunlarından "və aqroparkların" sözləri çıxarılsın;

10.1.2. "Digər icraçılar" sütunundan "KTN," akronimi çıxarılsın;

10.2. aşağıdakı məzmunda 5.2.7-1-ci yarımbənd əlavə edilsin:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5.2.7-1. | Aqroparkların fəaliyyətinin təşkili | 2025-2026 | KTN | İN, AQTA | Ərazilərdə kənd təsərrüfatı istehsalı infrastrukturunun inkişafının dəstəklənməsinə dair təkliflər hazırlanması | Ərazi planlaşdırma sənədlərinə uyğun olaraq aqroparkların yaradılması və istehsalın təşviqi |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2025-ci il*

# "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 125 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambula üzrə:

1.1. birinci abzasda "orqanlarının və yerli özünüidarəetmə orqanlarının, publik hüquqi şəxslərin (bundan sonra - qurum)" sözləri "və yerli özünüidarəetmə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin, publik hüquqi şəxslərin və büdcə təşkilatlarının (bundan sonra - orqanlar (qurumlar)" sözləri ilə əvəz edilsin;

1.2. ikinci abzasda "dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, qurumlara" sözləri "orqanlara (qurumlara)" sözləri ilə, "dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında, qurumlarda qulluğa" sözləri "orqanlarda (qurumlarda) qulluğa (işə)" sözləri ilə əvəz edilsin.

2. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **korrupsiya** - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştləri istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması, yaxud verilməsi;

1.1.2. **korrupsiya riski** - korrupsiya hüquqpozmalarının və ya korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsi ehtimalı;

1.1.3. **korrupsiya risklərinin idarə edilməsi** - korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərinin və həmin risklərə uyğun olaraq hədəflərin müəyyən edilməsi, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görülməsi;

1.1.4. **səlahiyyətli struktur bölmə (şəxs)** - korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların qəbul edilməsi və araşdırılması, maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması məsələləri üzrə konfidensial məsləhət verilməsi və korrupsiya risklərinin idarə edilməsi funksiyalarını həyata keçirən bir və ya bir neçə səlahiyyətli struktur bölmə və ya səlahiyyətli şəxs.".

3. 2.1.7-1-ci maddədə "qurumların" sözü "orqanların (qurumların)" sözləri ilə, "qurumlarda" sözü "orqanlarda (qurumlarda)" sözləri ilə əvəz edilsin.

4. 4.1-ci maddənin birinci cümləsində "dövlət orqanları, yerli özünüidarəetmə orqanları, qurumlar" sözləri "orqanlar (qurumlar)" sözləri ilə əvəz edilsin.

5. 7.3-cü maddədə ", idarə, müəssisə və təşkilatlarda" sözləri "(qurumlarda)" sözü ilə əvəz edilsin.

6. 8-ci maddə üzrə:

6.1. 8.2-ci maddənin ikinci cümləsində "dövlət orqanına, yerli özünüidarəetmə orqanına və ya quruma" sözləri "orqana (quruma)" sözləri ilə əvəz edilsin;

6.2. 8.3-cü maddədə "birbaşa rəhbərinin" sözləri "səlahiyyətli struktur bölmənin (şəxsin)" sözləri ilə əvəz edilsin;

6.3. 8.5-ci maddənin ikinci cümləsində "birbaşa rəhbərinə" sözləri "səlahiyyətli struktur bölməyə (şəxsə)" sözləri ilə, "dövlət orqanına, yerli özünüidarəetmə orqanına və ya quruma" sözləri "orqana (quruma)" sözləri ilə əvəz edilsin.

7. Aşağıdakı məzmunda 8-1-ci maddə əlavə edilsin:

"Maddə 8-1. **Orqanların (qurumların) fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi**

8-1.1. Orqanın (qurumun) rəhbəri korrupsiya risklərinin idarə edilməsi məqsədilə səlahiyyətli struktur bölmə (şəxs) müəyyən edir. Korrupsiya risklərinin idarə edilməsi prosesinə xüsusi bilik tələb edən sahələr üzrə mütəxəssislər cəlb edilə bilər.

8-1.2. Orqanda (qurumda) hər il yanvarın 15-dən aprelin 15-dək əvvəlki ili əhatə edən korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi aparılır. Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan müraciətlərin ümumiləşdirilməsinin nəticələrinə əsasən fəaliyyətindən daha çox şikayətlərin daxil olduğu struktur bölmədə və ya tabeliyində olan qurumda orqanın (qurumun) rəhbərinin qərarına əsasən digər müddətlərdə də risklərin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi keçirilə bilər.

8-1.3. Korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qiymətləndirilməsi həyata keçirilərkən aşağıdakı məlumatlar nəzərə alınır:

8-1.3.1. hüquqi və fiziki şəxslər arasında keçirilən sorğuların nəticələri;

8-1.3.2. korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan müraciətlər və həmin müraciətlər əsasında aparılan araşdırmaların nəticələri;

8-1.3.3. mediada, həmçinin internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayılan informasiya və korrupsiya risklərinin müəyyən edilməsi üçün mənbəyi məlum olan digər məlumatlar;

8-1.3.4. orqanın (qurumun) fəaliyyətini tənzimləyən hüquqi aktlar;

8-1.3.5. dövlət maliyyə nəzarəti tədbirlərinin, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin, yaxud məcburi və ya könüllü auditin nəticələri;

8-1.3.6. orqanın (qurumun) fəaliyyəti üçün xarakterik olan, mütəmadi olaraq baş verən korrupsiyaya şərait yaradan hallar;

8-1.3.7. orqanın (qurumun) fəaliyyətinə dair inzibati məhkəmə icraatında baxılan inzibati mübahisələrin sayı, predmeti və bunlarla bağlı müvafiq qərarlar.

8-1.4. Korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və bununla əlaqədar cari il üçün müəyyən edilən tədbirlər, həmçinin əvvəlki il üzrə müəyyən edilmiş tədbirlərə dair görülmüş işlər barədə məlumatlar hər il iyunun 1-dək Komissiyaya təqdim edilməlidir. Korrupsiya riskləri, həmin risklərə uyğun olaraq müəyyən edilən hədəflər, eləcə də risklərin qiymətləndirilməsinin nəticələri və görülmüş işlər barədə məlumatlar dövri olaraq ictimaiyyətə açıqlanır.

8-1.5. Komissiya bu Qanunun 8-1.4-cü maddəsinə uyğun olaraq ona təqdim edilən məlumatların təhlili əsasında müvafiq orqana (quruma) korrupsiya risklərinin idarə edilməsinə dair tövsiyələr, həmçinin korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilər.

8-1.6. Orqanların (qurumların) fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

8. 9.3.4-cü, 9.3.10-cu və 9.3.11-ci maddələrdə "dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri "orqanların (qurumların)" sözləri ilə əvəz edilsin.

9. 11-1-ci maddə üzrə:

9.1. aşağıdakı məzmunda 11-1.1-1-ci maddə əlavə edilsin:

"11-1.1-1. Orqanların (qurumların) rəhbərləri korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarədaxili qaydada verilməsi mexanizmini müəyyən etməli, işçilərin və iş görən və ya xidmət göstərən digər şəxslərin (bundan sonra - işçilərin) korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları qəbul etmək səlahiyyətinə malik subyektlər, bu subyektlərə və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlara müraciət etmə qaydaları, müraciətə baxılmanın nəticəsi və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxslərin hüquqları ilə tanış olmalarını təşkil etməlidirlər.";

9.2. 11-1.2-ci və 11-1.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"11-1.2. Orqanların (qurumların) rəhbərləri həmin orqanın (qurumun) strukturu, işçilərinin say həddi, fəaliyyət istiqamətləri, iş həcmi nəzərə alınmaqla korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların qəbul edilməsi və araşdırılması üçün səlahiyyətli struktur bölmə (şəxs) müəyyən edirlər.

11-1.3. Orqanlarda (qurumlarda) çalışan işçilər korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları səlahiyyətli struktur bölməyə (şəxsə) verə bilərlər. Səlahiyyətli struktur bölmə (şəxs) öz funksiyalarını səmərəli yerinə yetirmək üçün fəaliyyətinə qanunsuz müdaxilələri istisna edən zəruri müstəqilliyə malik olmalıdır. Səlahiyyətli struktur bölmə (şəxs) işçilər barədə həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi, insan resurslarının idarə olunması və işçilərin qiymətləndirilməsində (attestasiyasında) birbaşa və ya dolayı yolla iştirak etməməlidir. Səlahiyyətli struktur bölmə (şəxs) orqanların (qurumların) rəhbərləri qarşısında hesabatlılıq və qərəzsizlik tələblərinə uyğun fəaliyyət göstərməlidir.";

9.3. 11-1.4-cü maddəyə və 11-1.5-ci maddənin birinci cümləsinə "bölmə" sözündən sonra "(şəxs)" sözü əlavə edilsin;

9.4. 11-1.7-ci maddə üzrə:

9.4.1. birinci cümləyə "bölmə" sözündən sonra "(şəxs)" sözü əlavə edilsin və həmin cümlədə "idarə, müəssisə və ya təşkilatın" sözləri "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

9.4.2. ikinci cümlədə "İdarə, müəssisə və ya təşkilatın" sözləri "Orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

9.5. 11-1.8-ci maddənin birinci cümləsində hər iki halda "idarə, müəssisə və ya təşkilatın" sözləri "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

10. 11-2-ci maddə üzrə:

10.1. 11-2.1-ci maddənin birinci cümləsində ", idarə, müəssisə və ya təşkilatın" sözləri "(şəxs), orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

10.2. 11-2.2-ci maddədə "qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur" sözləri "qadağandır" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən işçiyə belə məlumat verdiyinə görə birbaşa və ya dolayı yolla qisas almaq məqsədilə tənbeh tətbiq etmə, əmək müqaviləsinə xitam vermə, vəzifədən azad etmə, başqa işə keçirmə, əməkhaqqından qanunsuz tutulmalar aparma, vəzifədə irəli çəkilməyə və ya həvəsləndirilməyə aktiv və ya passiv formada maneçilik törətmə, mənfi cəhətdən xarakterizə etmə və digər bu cür tədbirlər tətbiq edilə bilməz. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs ona qisas almaq məqsədilə hər hansı tədbirlərin tətbiqinə dair dəlillər irəli sürdükdə həmin dəlillərin təkzib edilməsi işəgötürənin üzərinə düşür.";

10.3. aşağıdakı məzmunda 11-2.2-1-ci və 11-2.2-2-ci maddələr əlavə edilsin:

"11-2.2-1. Orqanın (qurumun) rəhbəri müvafiq orqan (qurum) daxilində bu Qanunun 11-2.2-ci maddəsinin tələblərinə riayət olunmasını təmin edir və həmin maddənin tələblərinin pozulması məsuliyyətə səbəb olur.

11-2.2-2. Bu Qanunun 11-2.2-ci maddəsində nəzərdə tutulmuş tədbirə məruz qaldığını iddia edən şəxs pozulmuş hüquqlarının bərpası üçün aidiyyəti üzrə yuxarı vəzifəli şəxsə və məhkəməyə müraciət edə bilər.";

10.4. 11-2.4-cü maddə ləğv edilsin;

10.5. 11-2.5-ci maddədə "İdarə, müəssisə və ya təşkilatlar" sözləri "Orqanlar (qurumlar)" sözləri ilə əvəz edilsin və həmin maddəyə "bölmə" sözündən sonra "(şəxs)" sözü əlavə edilsin.

11. 12.1-ci maddənin ikinci cümləsində "dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının və ya qurumların" sözləri "orqanların (qurumların)" sözləri ilə əvəz edilsin.

12. 13-cü maddədə "dövlət orqanları, yerli özünüidarəetmə orqanları və ya qurumlar" sözləri "orqanlar (qurumlar)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2025-ci il*

# "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 8-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8-1.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 8-1.6-cı maddəsinə uyğun olaraq, dövlət və yerli özünüidarəetmə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin, publik hüquqi şəxslərin və büdcə təşkilatlarının fəaliyyətində korrupsiya risklərinin idarə edilməsi qaydalarını dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,14 aprel 2025-ci il*

# "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348 (Cild I); 2024, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddə 630, № 11, maddə 1182; Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 101-VIIQD nömrəli və 27 dekabr tarixli 110-VIIQD nömrəli qanunları) 15-ci maddəsinin birinci hissəsinin iyirmi üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi dördüncü abzas əlavə edilsin:

"əlilliyi olan şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından əldə edilən gəlirlər.".

**Maddə 2.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282; Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli və 27 dekabr tarixli 110-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 101.6-1-ci maddə əlavə edilsin:

"101.6-1. Əlilliyi olan şəxslərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet saytı vasitəsilə elektron ticarət qaydasında əl işlərinin satışından əldə edilən gəlirlərindən xərclər çıxılmadan 2 faiz dərəcə ilə vergi tutulur.";

2.2. 150-ci maddə üzrə:

2.2.1. 150.1.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 150.1.14-1-ci maddə əlavə edilsin:

"150.1.14-1. Bu Məcəllənin 101.6-1-ci maddəsində nəzərdə tutulan satışlardan əldə edilən gəlirlərlə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);";

2.2.2. 150.3.1-ci maddəyə "150.1.8-ci" sözlərindən sonra ", 150.1.14-1-ci" sözləri əlavə edilsin;

2.2.3. 150.3.3-cü maddəyə "150.1.8-ci" sözlərindən sonra ", 150.1.14-1-ci" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2025-ci il*

# "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin birinci hissəsinin iyirmi dördüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin iyirmi dördüncü abzasında "orqan (qurum)" dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 101.6-1-ci və 150.1.14-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 101.6-1-ci və 150.1.14-1-ci maddələrində "orqan (qurum)" dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 144-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 349 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddə 661, № 11, maddə 1199) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.4-cü bənddə "və iyirmi ikinci" sözləri ", iyirmi ikinci və iyirmi dördüncü" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. həmin Qanunun 15-ci maddəsinin birinci hissəsinin iyirmi dördüncü abzasında "orqan (qurum)" dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

4. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndə "101.1-4-cü," sözlərindən sonra "101.6-1-ci," sözləri, "144.1.4-cü," sözlərindən sonra "150.1.14-1-ci," sözləri əlavə edilsin;

4.2. 1.46-cı bənd aşağıdakı redaksiyada verilsin:

"1.46. həmin Məcəllənin 101.6-1-ci, 102.1.33-cü, 106.1.24-cü, 150.1.14-1-ci və 164.1.42-ci maddələrində "orqan (qurum)" dedikdə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 aprel 2025-ci il*

# Baş nazir Əli Əsədov Mirça Abrudeanla görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 14-də Rumıniya Parlamenti Senatının Sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanla görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Rumıniya əlaqələrinin strateji tərəfdaşlıq əsasında dinamik inkişafından məmnunluq ifadə olunub.

Həmçinin siyasi dialoqun yüksək səviyyədə olduğu bildirilib, dövlət başçıları və digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulanıb. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın və qarşılıqlı dəstəyin önəmi qeyd edilib.

Parlamentlərarası əməkdaşlığa toxunularaq parlament səviyyəsində qarşılıqlı səfərlərin, həmçinin hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Rumıniya arasında iqtisadi-ticari, investisiya, neft-qaz, "yaşıl enerji", nəqliyyat, dövlət xidmətlərinin göstərilməsi, humanitar və digər istiqamətlərdə əməkdaşlığın genişlənməsi məmnunluqla qeyd edilib.

Eyni zamanda qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Azərbaycanla Rumıniya arasında bir çox sahələrdə əməkdaşlığın daha da inkişafı üçün böyük potensial var



**Aprelin 14-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Rumıniya Parlamenti Senatı Sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı və onun rəhbərlik etdiyi nümayəndə heyətini səmimiyyətlə salamlayan spiker Sahibə Qafarova bu səfərin parlamentlərimiz və ölkələrimiz arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. O, Rumıniyanın Azərbaycanın müstəqilliyini tanıyan dünyada ikinci, Avropa İttifaqı ölkələri arasında isə birinci dövlət olduğunu qeyd edib, ölkələrimiz arasındakı dərin dostluq münasibətlərindən danışıb.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxdığı, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin və görüşlərin əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı dövlətlərimiz arasında olan münasibətlərin qanunverici orqanlar arasında da əməkdaşlığın dinamik inkişafı üçün yaxşı imkanlar yaratdığı, parlament dostluq qruplarının mühüm rolu və parlament komitələri arasında birbaşa əlaqələrin yaradılmasının vacibliyi qeyd edilib.

Sahibə Qafarova Azərbaycan və Rumıniyanın beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyini vurğulayıb.

Söhbət zamanı Milli Məclisin Sədri Vətən müharibəsindən sonra regionda mövcud vəziyyət, Azərbaycanın BMT qətnamələrinin icrasını öz gücü ilə təmin edərək ərazi bütövlüyünü və müstəqilliyini bərpa etdikdən sonra bəzi Avropa ölkələri tərəfindən qarşılaşdığı təzyiqlər, məqsədli şəkildə yayılan saxta informasiyalara qarşı apardığı mübarizə, Azərbaycan və Ermənistan arasında sülh prosesinin gedişi barədə də məlumat verib. Spiker bildirib ki, hazırda iki ölkə arasında sülh müqaviləsinin mətni razılaşdırılıb. Lakin iki məsələ sülh müqaviləsinin imzalanmasına mane olur. Bunlar Ermənistan konstitusiyasının preambulasında Azərbaycana qarşı olan ərazi iddiası və uzun illər problemin həlli ilə məşğul olmuş ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac qalmadığı üçün onun ləğv edilməsidir. Bu məsələlər də öz həllini tapdıqdan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanmasına heç bir maneə qalmayacaq.

Görüşdə həmçinin Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə apardığı tikinti-quruculuq işləri, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, sakinlərinin öz doğma yurdlarına qayıtması, qərbi azərbaycanlıların hüquqlarının bərpasının təmin olunması barədə də danışılıb.

Rumıniya Parlamenti Senatı Sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudean səmimi görüş üçün təşəkkürünü bildirərək, Azərbaycanla Rumıniya arasında bir çox sahələrdə əməkdaşlığın daha da inkişafı üçün böyük potensial olduğunu bildirib.

Qonaq ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü hər zaman tanıdığını, beynəlxalq təşkilatlarda, xüsusilə də AŞPA-da ölkəmizi müdafiə etdiyini və Ermənistanla sülh planını dəstəklədiyini diqqətə çatdırıb. O, tezliklə sülh sazişinin imzalanacağına inamını ifadə edib və bu regionu parlaq gələcəyin gözlədiyinə əminliyini bildirib.

Söhbət zamanı Azərbaycanla enerji, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın olduğunu bildirən qonaq, Azərbaycanın ASAN xidmət təcrübəsinin Rumıniyada da tətbiqi üçün Anlaşma Memorandumu imzalandığını və bu təcrübəni öyrəndiklərini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Rumıniya Parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Zəfər parkını ziyarət edib





Ölkəmizdə rəsmi səfərdə olan Rumıniya Parlamenti Senatı Sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanın başçılıq etdiyi nümayəndə heyəti aprelin 14-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev, Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov, Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Rumıniya Parlamenti Senatının rəhbəri ölkəmizə səfərə gəlib



**Rumıniya Parlamenti Senatının Sədri vəzifəsini müvəqqəti icra edən Mirça Abrudean aprelin 13-də ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında Rumıniya parlament nümayəndə heyətini Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev, Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov, Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare və digər rəsmi şəxslər qarşılayıblar.

Rəsmi səfər aprelin 15-də başa çatacaq.

*"Azərbaycan"*

# Azərbaycan-BMT əməkdaşlığının müxtəlif aspektləri müzakirə olunub



**Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyev ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-BMT əməkdaşlığının müxtəlif aspektləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub. Ölkəmizin BMT-yə üzv olmasından bəri təşkilatla aparılan qarşılıqlı faydalı əməkdaşlıq, ölkəmizin BMT-nin fəaliyyətində aktiv iştirakı, təşkilatın sülhməramlı əməliyyatlarına töhfələrinin təqdirəlayiq olduğu qeyd edilib, bu istiqamətdə perspektivlər nəzərdən keçirilib. Azərbaycanın evsahibliyi və sədrliyi ilə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyədə təşkilində təşkilatla olduqca yaxşı qurulmuş əməkdaşlıq məmnunluqla qeyd edilib, sessiya zamanı əldə olunmuş əhəmiyyətli qərarların, o cümlədən Bakı Maliyyə Məqsədinin qəbul olunmasının vacibliyi diqqətə çatdırılıb.

Vətəndaşlarımızın həyat və sağlamlıqlarına, öz yurdlarına ləyaqətli qayıdış prosesinə, habelə ölkəmizin sülh və yenidənqurma səylərinə təhdid törədən mina təhlükəsi ilə mübarizə səylərində, humanitar minatəmizləmə fəaliyyətində əməkdaşlıq və dəstəyin əhəmiyyəti vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Rumıniya nümayəndə heyəti Bakıda bəstəkar Corce Eneskunun abidəsini ziyarət edib



Aprelin 14-də ölkəmizdə səfərdə olan Rumıniya Parlamenti Senatı Sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanın başçılıq etdiyi parlament nümayəndə heyəti Bakının Binəqədi rayonu ərazisində yerləşən dahi rumın bəstəkarı Corce Enesku adına parkda olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Rumıniya parlament nümayəndə heyətinin üzvləri burada görkəmli bəstəkar Corce Eneskunun abidəsini ziyarət edərək, önünə güllər düzüblər, xatirəsini ehtiramla yad ediblər.

*"Azərbaycan"*

# Ceyhun Bayramov Yulius Pranevičius ilə görüşüb



**Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Litvanın xarici işlər nazirinin müavini Yulius Pranevičius ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Litva ikitərəfli və çoxtərəfli münasibətləri, regional və beynəlxalq vəziyyət müzakirə olunub.

İki ölkə arasında iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, humanitar sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğu qeyd edilib, bundan irəli gələn məsələlərin müzakirəsi baxımından siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti vurğulanıb. Çoxtərəfli platformalar çərçivəsində tərəfdaşlığın inkişaf etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesinin gedişatı barədə ətraflı məlumatlandırıb. Sülh və normallaşma prosesinin irəlilədilməsinin qarşısında duran çağırışlar, o cümlədən Ermənistan konstitusiyası və bir sıra qanunvericilik aktlarında ölkəmizə qarşı davam edən ərazi iddiaları, Ermənistanın sürətli silahlanması, habelə keçmiş münaqişədən qalma ATƏT-in Minsk qrupu və aidiyyəti strukturların mövcudluğu məsələsi diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bu gün həmçinin Azərbaycan Respublikası və Litva Respublikasının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Fariz Rzayev, Litva tərəfindən isə xarici işlər nazirinin müavini Yulius Pranevičius rəhbərlik ediblər.

# Konstitusiya Məhkəməsində yeni təyin olunmuş hakim Xanlar Vəliyev kollektivə təqdim edilib



**Aprelin 14-də Konstitusiya Məhkəməsində hakim Rafael Qvaladzenin səlahiyyət müddətinin başa çatması və Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclisin qərarı ilə məhkəmənin yeni təyin edilmiş hakimi Xanlar Vəliyevin kollektivə təqdim olunmasına dair tədbir keçirilib.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

Tədbirdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək ölkəmizdə hüquqi dövlət quruculuğunun Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olması, Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində atılan mühüm addımlar barədə danışıb.

O, Rafael Qvaladzenin tanınmış hüquqşünas kimi hüquqi dövlət quruculuğu, ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində uzun illər məsul vəzifələrdə uğurlu fəaliyyətindən, məhkəmə-hüquq sistemində xidmətlərindən bəhs edərək, onun Konstitusiya Məhkəməsinin hakimi kimi hər zaman yüksək peşəkarlıqla fərqləndiyini, insan hüquq və azadlıqlarının müdafiəsi, milli qanunvericiliyin Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşməsi və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etdirilməsi istiqamətində səylərini vurğulayıb.

Fərhad Abdullayev Prezident İlham Əliyevin sərəncamı ilə təltif edilən Rafael Qvaladzeyə məhkəmə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenini təqdim edib.

Rafael Qvaladze fəaliyyətinin yüksək qiymətləndirilməsinə görə dərin minnətdarlığını bildirib.

Konstitusiya Məhkəməsinin sədri yeni təyin olunmuş hakimi kollektivə təqdim edərək, bu təyinatın əhəmiyyətini vurğulayıb və Xanlar Vəliyevə təbriklərini çatdıraraq ona gələcək hakim fəaliyyətində uğurlar arzulayıb.

O, Xanlar Vəliyevin hüquq-mühafizə orqanlarında müxtəlif məsul vəzifələrdə yüksək peşəkarlıq göstərdiyini, milli dövlətçiliyimizə qarşı yönəlmiş qəsdlərin qarşısının alınmasında, ədalətin bərqərar olunması naminə görülən işlərdə hər zaman prinsipiallıq nümayiş etdirdiyini bildirib. Onun Konstitusiya Məhkəməsinin hakimi kimi yüksək və məsuliyyətli vəzifədə də öz bilik və bacarığını dövlətçiliyimizin, konstitusional hüququn və insan hüquq və azadlıqlarının müdafiəsinə yönəldəcəyinə, Konstitusiya Məhkəməsinin fəaliyyətinə dəyərli töhfələr verəcəyinə əminliyini ifadə edib.

Xanlar Vəliyev ona göstərilən etimada görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib, gələcək hakim fəaliyyətində Konstitusiyanın aliliyinin təmin edilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.









Dünya ədalətsizliklərlə doludur!

Hətta o qədər ədalətsizliklər baş verir ki, qoca dünya bütün bunlara dözməyərək od tutub yanır!

Son dövrlərdə artan meşə yanğınları, onların törətdiyi acı nəticələr dediklərimizi təsdiq edir...

Bu ədalətsizliklərdən yeni müstəqillik qazanmış bir dövlət olaraq yaxşı xəbərdarıq.

32 il bundan əvvəl bizdən əhali sayına görə az, ərazi cəhətdən xeyli geridə qalan, iqtisadi cəhətdən isə çox-çox aşağı olan Ermənistan torpaqlarımızı işğal edərək bir milyondan çox azərbaycanlını məcburi köçkünə çevirdi.

**Hamı üzdə bizə haqlı tərəf, təcavüzə məruz qalan ölkə söyləsə də, əməldə beynəlxalq hüquq təmin olunmadı, işğalçı nəinki cəzalandırılmadı, hətta işğalla bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə belə, yerinə yetirilmədi, Ermənistana qarşı təsir, təzyiq göstərilmədi, sanksiya tətbiq edilmədi.**

*Əksinə, ATƏT-in Minsk qrupuna daxil olan həmsədr dövlətlər işğalçının başını sığallayaraq ona siyasi, iqtisadi, hərbi, maliyyə və mənəvi dəstək verdilər, riyakar siyasət yeritdilər.*

**Nəticədə özgələrinə güvənən düşmən aldığı dəstəklər sayəsində şəhər və kəndlərimizi işğal etdi, ərazilərimizdə genosid, ekosid, urbisid, kulturosid törətdi.**

*Bir vaxtlar Ermənistanın qarşısında mərdliklə dayanaraq erməni yaraqlılarının, "saqqallıları"nın və "fədailəri"nin qəniminə çevrilən Ağdamı da işğal edərək "ruhlar şəhəri"nə çevirdilər!*

# "RUHLAR ŞƏHƏRİ"NİN QİSASI

I Qarabağ müharibəsi dövründə Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi statusunu daşıyırdı.

Münaqişənin ilk dövrlərində keçmiş DQMV-dəki azərbaycanlıların yaşadıqları kəndlərə, habelə ermənilərlə qonşu kəndlərdə yaşayan əhaliyə Ağdam vasitəsilə yardımlar çatdırılır, kritik məqamlarda kömək göstərilir, həmin kəndlərdən didərgin salınanlar ən əvvəl Ağdama pənah gətirirdilər.

Sonralar Ağdamda altı könüllü özünümüdafiə batalyonu təşkil olundu və münaqişənin hərbi mərhələsi başladı.

**Təəssüf ki, Azərbaycana o dövrdə rəhbərlik edənlər maymaqlıq və qorxaqlıq göstərir, əhalinin müdafiəsinə lazımi diqqət yetirmirdilər.**

*Hətta ermənilərin silahlandığı bir dövrdə rəsmi qərarla insanlardakı ov tüfəngləri belə əllərindən alındı.*

**AXC-Müsavat cütlüyünün iqtidarı dövründə Ağdam daha ağır vəziyyətə salındı.**

**"Bəy"lər torpaqların müdafiəsindən çox ciblərinin hayına qalırdılar...**

"Cəbhəçilər"in müdafiə naziri R.Qazıyev isə xəyanət yolu ilə Şuşanın düşmənlərə verilməsinə kömək göstərəndən sonra Ağdama gələrək burada iki özünümüdafiə batalyonunun başçıları arasında qan düşmənçiliyi saldı, torpaqların müdafiəsini zəiflətdi.

Beləliklə, Ağdamın düşmən tərəfindən işğalına şərait yaradıldı.

❖ ❖ ❖

*O dövrdə respublikanın hər bir guşəsindən igid oğullar Ağdama gələrək könüllü özünümüdafiə batalyonlarına üzv yazılır, torpaqların müdafiəsində qanlarını və canlarını əsirgəmirdilər.*

**Ağdamlılar bu gün də həmin döyüşlərdə şəhid olanları doğma övladları sayır, xatirələrini daim əziz tuturlar.**

Lakin qüvvələr nisbəti bərabər deyildi!

*Erməniləşdirilmiş sovet ordusunun nizami hissələri sovet silahları ilə bizə qarşı döyüşürdülər.*

**Silah-sursatın çatmadığı, nizami ordunun qurulmadığı, özünümüdafiə batalyonlarının vahid mərkəzə tabe olmadığı və vahid qaydada idarə edilmədiyi bir şəraitdə vəziyyət getdikcə pisləşirdi.**

Həmin dövrdə düşmən ən ağır və ciddi zərbəni Ağdamdan alır, Ağdam batalyonları onlara daha çox itkilər yaşadırdılar.

*Lakin rəhbərsizlik və başıpozuqluq, AXC-Müsavat cütlüyünün xəyanətləri və səriştəsizliyi Ağdamın da düşmən əlinə keçməsinə imkan yaratdı.*

**Düşmən isə ən çox zərbə aldığı və ziyan gördüyü Ağdamdan əvəzini çıxmağa başladı!**

Ağdamlıların qabaq-qənşər döyüşlərdə onlara etdiklərinin qisasını boş qalmış şəhərin və digər yaşayış məntəqələrinin daşından, torpağından, bina və qurğularından, bağ və meşələrindən, məscid və mədəni abidələrindən, hətta qəbiristanlıqlarından aldı.

*Fars qardaşları ilə birləşərək evləri yağmaladılar, su və kanalizasiya borularını, binaların daşını, taxtasını, dəmirini, qapı və pəncərələrini söküb daşıyaraq İrandakı tikinti materialları bazarında satdılar.*

**Beləliklə, bir vaxtlar Azərbaycanın ən zəngin, yaraşıqlı, gözəl yaşayış məntəqələrindən biri olan Ağdamı "ruhlar şəhəri"nə çevirdilər.**

**Dünyanın etiraf etdiyi "ruhlar şəhəri"nə!**

❖ ❖ ❖

Ağdamın ikinci qisası isə 44 günlük Zəfər müharibəsində alındı!

*Bu "qisas" özünəməxsus formada baş verdi.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın işğaldan azad edilməsinə çox ciddi və hərtərəfli hazırlaşmışdı.**

Hərbi əməliyyatlar başlayanda isə ən yeni taktika və strategiya tətbiq etdi.

Düşmən hücumu mərkəzdən, Ağdam istiqamətindən gözləyirdi.

Ordumuz elə bir görüntü də yaratdı və düşmənin əsas hərbi qüvvələrini və texnikasını sonadək bu istiqamətdə saxladı.

*Hücumlar isə dayanmadan, sərhədboyu davam etdi, bir-birinin ardınca Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və ən nəhayət, Şuşa işğaldan azad edildi.*

*Ermənilər dostlarının köməyi ilə Ağdam, Laçın və Kəlbəcər istiqamətlərində altıqat müdafiə xətti yaratmışdılar.*

**İlham Əliyev tərəfindən Bakıda yaradılan Hərbi Qənimətlər Parkında bu müdafiə xəttinin bütün elementləri açıq şəkildə nümayiş olunur və buraya gələnlər tamaşa edə bilirlər.**

*Düşmənin və onun köməkçilərinin hesablamalarına görə, Azərbaycan Ordusu yerli relyefin yaratdığı imkanları hesabına daha da möhkəmlənən xəndəkləri, səngərləri, "ohanyan səddi"ni, mina sahəsini, tikanlı məftilləri, kameralarla təchiz edilmiş atəş nöqtələrini, beton bunkerləri heç vəchlə keçə bilməyəcək, böyük itkilər verərək geri çəkiləcəkdi.*

LAKİN...

**Onlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrikliyindən və uzaqgörənliyindən, hərbi dühasından xəbərsiz idilər.**

*Onlar bizi yerdə gözləyirdilər, biz isə başlarına göydən od yağdırdıq!*

Həm də Şuşanı azad etdikdən sonra Ermənistan ordusunun böyük bir hissəsi mühasirə vəziyyətinə salınmışdı və onların bir neçə saat ərzində məhvi çətin deyildi.

**Azərbaycan Prezidenti cənab İlham Əliyev Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirakı zamanı bu məqamı belə xatırlatdı:**

*"Biz Ağdam istiqamətində artıq Hadrut, Cəbrayıl, Füzuli, Şuşa azad olunandan sonra hərəkət etməyə başlamışdıq və faktiki olaraq, düşmənin qüvvələri mühasirədə qalmışdı. Azərbaycan yenə də humanistlik göstərdi və düşmənə şans verdi ki, öz xoşu ilə bu torpaqlardan çıxsın. Əks təqdirdə, bu bölgədə mühasirədə qalmış 10, bəlkə də 15 minlik Ermənistan ordusunun kontingenti tamamilə məhv ediləcəkdi. Yəni yenə də Azərbaycan dövləti humanistlik göstərdi o ünsürlərə ki, onlar buna layiq deyillər".*

**Ağdamın ikinci qisasının unikallığı onda oldu ki, ordumuz Ağdama şiddətli atəş açmadı, Ağdam tərəfdən də bizə tələfat yaşadılmadı.**

*Dağıdılmış Ağdam bizi sülhlə qarşıladı, yaralı bağrına basdı.*

*Ağdam, Laçın, Kəlbəcər bir güllə atılmadan geri qaytarıldı.*

❖ ❖ ❖

**Ağdamın üçüncü qisası isə bu gün alınır!**

**Yenə özünəməxsus şəkildə!**

*Düşmənin viran qoyduğu, xarabazara çevirdiyi Ağdam yenidən, sıfırdan başlayaraq təzədən tikilib qurulur!*

**Düşməni hərb meydanında zəlil günə salan, ordusunu "dəmir yumruğ"u ilə məhv edən Müzəffər Ali Baş Komandan İlham Əliyev indi Azərbaycanın qüdrətini quruculuq işlərində nümayiş etdirir.**

2021-ci ilin 28 mayında yeni Ağdamın təməlqoyma mərasimi keçirildi.

**Ağdamın baş planını təqdim edən cənab İlham Əliyev açıq şəkildə bəyan etdi:**

**- Tapşırmışam ki, şəhərsalma və memarlıq sahəsində dünyada yaxşı nə varsa, onun hamısından Ağdamda da olmalıdır!**

*Prezidentimizin bu göstərişinə quruculuq prosesində diqqətlə əməl edilir.*

"Böyük qayıdış" Dövlət Proqramına uyğun olaraq Ağdamda aparılan quruculuq işləri bir an belə ara vermir.

**Dövlət başçısı ağdamlılarla görüşdə bu məsələyə də diqqət çəkdi:**

*"Bu gün burada insanlar rahat yaşayacaqlar, heç kimdən qorxmadan, ləyaqətlə yaşayacaqlar. Əminəm ki, xoşbəxt yaşayacaqlar. Çünki artıq həm torpaqlar geri qaytarıldı, eyni zamanda xalqımızın milli ləyaqəti bərpa edildi. Ermənistan 30 il ərzində hər vəchlə çalışırdı ki, bir santimetr torpaq da bizə qaytarılmasın. Onun arxasında duran xarici qüvvələr də onlarla həmrəy idi, əlbir idi. Amma onlar bir şeyi nəzərə almamışdılar, o da Azərbaycan dövlətinin gücü, iradəsi, cəsarəti və ordumuzun qəhrəmanlığıdır".*

❖ ❖ ❖

**Bəli, Ermənistan bir dəfə ciddi səhv etdi.**

**Sülh yolu ilə Azərbaycan torpaqlarını işğaldan azad etmədi!**

Ermənistanın faşist xislətli prezidentləri L.Ter-Petrosyan, R.Koçaryan və S.Sərkisyan açıq şəkildə öz məqsədlərinə çatdıqlarını bəyan edərək Qarabağı özlərinə birləşdirdiklərini bildirdilər.

Hətta Ermənistanın sonuncu başçısı N.Paşinyan eyforiyaya qapılaraq həddini aşdı: "Qarabağ Ermənistandır və nöqtə" söylədi.

Münaqişənin sülh yolu ilə nizama salınmasından ötrü yaradılan ATƏT-in Minsk qrupu isə ermənidən betər ermənilik edirdi.

"Sülh danışıqları" imitasiyası yaradan üç həmsədr dövlət, əslində, ermənilərin əlinə oynayır, danışıqları sonsuzadək uzatmaqla işğalı əbədiliyə çevirmək niyyəti güdürdü.

Odur ki, Ermənistan bir dəfə ciddi səhv etdi: xoşluqla, sülh yolu ilə Azərbaycan torpaqlarından işğalçı qoşunlarını çıxarmadı!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə 44 günlük Zəfər müharibəsində Ermənistana və qudurmuş başçılarına elə bir qulaqburması verdi ki, ömürləri boyu unutmayacaqlar!**

*"Dəmir yumruğ"un zərbəsindən darmadağın olan Ermənistan yalvar-yaxara başladı, Azərbaycan Prezidentinə çoxsaylı minnətçilər saldı.*

*Lakin cənab İlham Əliyev qoyduğu şərtlər qəbul edilməyənədək hərbi əməliyyatları dayandırmadı.*

Quyruğu qapı arasından çıxan Paşinyan, deyəsən, yenidən xam xəyallara, revanş niyyətinə düşüb:

* Üçtərəfli Bəyanatın qalan şərtlərinə əməl etmir;

* Azərbaycanın digər şərtlərini - Ermənistan Konstitusiyasındakı ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılmasını, Azərbaycandan-Azərbaycana sərbəst keçidi, Minsk qrupunun buraxılması üçün birlikdə müraciəti müxtəlif bəhanələrlə uzadır;

* Fransa, Hindistan və Yunanıstandan hücum silahları almaqla sürətlə silahlanır;

* Azərbaycanla sərhəddə yerləşdirdiyi "avrocasuslar"ın "missiya"sını birtərəfli qaydada uzadır;

* Dünyada özünü "sülh müqaviləsini imzalamağa hazır ölkə", Azərbaycanı isə bundan "imtina edən" kimi təqdim etmək üçün məkrli təbliğat aparır;

* Tez-tez ölkəmizlə şərti sərhəddə atəşkəsi pozur, pilotsuz uçuş aparatları və dronlarla kəşfiyyat uçuşları keçirir;

* Ermənistanın baş naziri və xarici işlər naziri isə Azərbaycan əleyhinə yalan, qərəzli, məkrli açıqlamalar verməklə dünya ictimaiyyətini çaşdırmağa çalışırlar.

**Bütün bunlardan göründüyü kimi, Ermənistan ikinci dəfə fəlakətli səhvə yol verməyə köklənir.**

*"Xəyali Ermənistan"ın puçluğunu dərk edənlər "real Ermənistan"ın mövcudluğunu, Ermənistan dövlətçiliyini də təhlükəyə saldıqlarını düşünmürlər.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə dəfələrlə xəbərdarlığını edib!**

"Dəmir yumruq" da hazır vəziyyətdədir!

Səbrimiz də sonsuz deyil!

*Gücümüz və imkanlarımız isə təkcə Ermənistan rəhbərliyinə deyil, onların müdafiəçilərinə və dəstəkçilərinə də bəllidir!*

İki seçimləri var: yeni müharibə və ya Azərbaycanın şərtlərinə, habelə imzaladıqları sənədlərə əməl etmək!

Vaxt isə o qədər də çox deyil!

**Onsuz da Azərbaycan gec-tez öz istəklərinə çatır!**

**Bəxtiyar SADIQOV**

# "Ekspo 2025"də Azərbaycan milli pavilyonunun açılışı olub





**Yaponiyanın Osaka şəhərində "Həyatımız üçün gələcək cəmiyyəti formalaşdıraq" (Designing the Future Society for Our Lives) mövzusunda "Osaka, Kansai Ekspo 2025" dünya sərgisi işinə başlayıb.**

"Ekspo 2025"in rəsmi açılışında Yaponiya İmperatoru Naruhito, bu ölkənin Baş naziri Siqeru İsiba, Beynəlxalq Sərgilər Bürosunun Baş katibi Dmitriy Kerkentzes, dünya sərgisində təmsil olunan ölkələrdən yüksəksəviyyəli qonaqlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, 2000-ci ildən "Ekspo" sərgilərində uğurla təmsil olunan Azərbaycan bu il də dünya sərgisində iştiraka böyük əhəmiyyət verir.

Tədbir çərçivəsində Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyonun da açılışı olub. Açılışda Azərbaycanın "Ekspo 2025" üzrə Baş komissarı, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, "Ekspo 2025"in Azərbaycan üzrə ölkə meneceri Şimzi



İzumi, Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadə və digər qonaqlar iştirak ediblər.

Azərbaycan pavilyonu "Ekspo 2025"in "Həyatları əlaqələndirmək" ("Connecting Lives") bölməsində yerləşməklə "Dayanıqlı inkişafa doğru yeddi körpü" ("Seven bridges for sustainability") mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından qaynaqlanıb. Burada Azərbaycanın zəngin mədəni irsi, texnoloji inkişaf və davamlı inkişafa bağlılığı, eyni zamanda dialoqa açıqlığı nümayiş olunur. Çünki dialoq və əlaqələr vasitəsilə aydın, harmoniya dolu və dayanıqlı gələcəyə nail olmaq mümkündür.

Üç mərtəbədən ibarət pavilyonun fasadının dizaynı Azərbaycan ənənələrini, incəsənətini və sənətkarlığını təcəssüm etdirən şəbəkə motivlərindən yaradılıb. Ziyarətçilər pavilyondakı səyahətlərinə nəhəng yeddi gözəlin hər birinin təcəssüm etdirdiyi müxtəlif istiqamətlərlə - mədəni müxtəliflik, mədəni irs, ənənəvi incəsənət, memarlıq inciləri, davamlı inkişaf, təbii sərvətlər, idman və turizm sahələri ilə tanışlıqla başlayırlar.

Pavilyonda Azərbaycan və Yaponiyanı tərənnüm edən üç ağac da yer alıb. Bunlar "Azərbaycan ağacı", "Yapon ağacı", Azərbaycan və yapon ağaclarının sintezi olan "Dostluq ağacı"dır.

155 hektardan çox ərazini əhatə edən "Ekspo 2025"də ümumilikdə 165 ölkə və 7 beynəlxalq təşkilat təmsil olunur. Oktyabrın 13-dək müddətdə "Ekspo 2025"ə 28 milyon ziyarətçinin gəlişi gözlənilir.

# Baş Prokuror Kamran Əliyev Xankəndi şəhərində əməliyyat müşavirəsi keçirib





Aprel 14-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Xankəndi Şəhər Prokurorluğunda Baş Prokurorluğun əməkdaşları, Xankəndi şəhər, Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Zəngilan rayon, eləcə də Ağdam, Füzuli, Kəlbəcər, Qubadlı və Tərtər hərbi prokurorlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquq-mühafizə sisteminin institusional dayanıqlığının təmin olunması, cinayətkarlığa qarşı mübarizənin vəziyyəti və əhalinin hüquqlarının müdafiəsi məsələləri ətraflı müzakirə olunub.

Baş prokuror çıxışında həmçinin işğaldan azad edilmiş ərazilərdə qanunun aliliyinin tam şəkildə təmin olunması istiqamətində qarşıda duran vəzifələri diqqətə çatdırıb. Kamran Əliyev vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə hüquq-mühafizə sisteminin fəaliyyəti dövlətin suverenliyinin və hüquqi təsisatlarının real təcəssümüdür.

Müşavirə çərçivəsində xüsusi vurğulanan məsələlərdən biri də yerli əhali ilə qarşılıqlı etimada əsaslanan hüquq münasibətlərinin qurulması və cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi olub.

# Azərbaycan qlobal əməkdaşlığa mühüm töhfə verir

**Aprelin 11-13-də baş tutan IV Antalya Diplomatiya Forumu (ADF) bir çox siyasi hadisələrlə yadda qaldı. Foruma ümumilikdə dünyanın 155 ölkəsindən altı mindən artıq iştirakçı qatıldı. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da ADF-də iştirak etdilər.**

Forumda Cənubi Qafqazdakı son vəziyyət, Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişi, qərbi azərbaycanlıların doğma yurd-yuvalarına qayıdışı, iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin rolu, o cümlədən Bakıda keçirilən COP29, Türk Dövlətləri Təşkilatının fəaliyyəti kimi ölkəmizi maraqlandıran məsələlər də müzakirə edildi.

Milli Məclisin deputatı Elçin Mirzəbəyli qəzetimizə açıqlamasında bildirib ki, son illər qlobal miqyasda baş verən geosiyasi dəyişikliklər, güc mərkəzlərinin şaxələnməsi və regional güclərin artan rolu yeni dünya nizamının formalaşması prosesini sürətləndirir. Bu prosesdə diplomatik platformalar, xüsusilə Antalya Diplomatiya Forumu (ADF) kimi beynəlxalq dialoq məkanları mühüm əhəmiyyət kəsb edir. ADF yalnız diplomatik təşəbbüslərin nümayişi deyil, həm də iştirakçı dövlətlər üçün geosiyasi mövqelərini gücləndirmək baxımından strateji imkanlar yaradır. "Antalya Diplomatiya Forumu dünya liderlərinin, siyasətçilərin və ekspertlərin bir araya gələrək qlobal çağırışları müzakirə etdiyi mühüm platformadır. Forumun əsas üstünlüyü onun inklüzivliyində və müxtəlif regional problemlərin eyni məkanda gündəmə gətirilməsindədir. Yeni dünya nizamı formalaşarkən belə platformalarda aparılan müzakirələr güc balansını müəyyən edən, əməkdaşlıq perspektivlərini dəyərləndirən mühüm faktor kimi çıxış edir.



Azərbaycan bu cür forumlarda fəal iştirak etməklə həm öz mövqeyini gücləndirir, həm də regional əməkdaşlığa töhfə verir", - deyə deputat əlavə edib.

Elçin Mirzəbəyli qeyd edib ki, Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirdiyi görüş Antalya Diplomatiya Forumu çərçivəsində xüsusi önəm daşıyıb. Bu görüş iki qardaş ölkə arasında siyasi, iqtisadi və hərbi əməkdaşlığın daha da dərinləşdiyini bir daha nümayiş etdirdi. Görüş zamanı verilən açıqlamalar birgə strateji layihələrin davam etdiriləcəyini, regional sabitlik və təhlükəsizlik məsələlərində koordinasiyalı fəaliyyətin vacibliyini vurğuladı. Xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi iki ölkə münasibətlərinin perspektivini daha da möhkəmləndirir.

Siyasətçi vurğulayıb ki, Azərbaycan Prezidentinin Suriyanın keçid prezidenti Əhməd Əş-Şaraa ilə görüşü də regionda yeni diplomatik dinamikanın xəbərçisidir: "Bu görüş Azərbaycanın Yaxın Şərqdə sabitlik və bərpa proseslərinə marağını və iştirakını göstərir. Azərbaycanın postmünaqişə bərpa sahəsindəki təcrübəsi Suriyaya infrastrukturun yenidən qurulması, sosial-iqtisadi layihələrin reallaşdırılması sahəsində faydalı ola bilər. Həmçinin bu görüş Azərbaycanın beynəlxalq arenada neytral və konstruktiv mövqe tutduğunu bir daha sübut edir".

## Azərbaycan-Gürcüstan əlaqələri daha da güclənir

E.Mirzəbəyli qeyd edib ki, Prezident İlham Əliyevin Gürcüstanın baş naziri ilə görüşündə iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi əsas mövzulardan biri olub. Azərbaycanın Gürcüstanın suverenliyinə verdiyi dəstək regionda sabitliyin qorunması və təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsi baxımından önəmlidir. Bakı və Tbilisi arasında enerji, nəqliyyat və iqtisadi əməkdaşlıq layihələri Cənubi Qafqazın təhlükəsiz inkişafının təməl sütunlarını təşkil edir.

Dövlətimizin başçısının Şimali Kipr Türk Respublikasının (ŞKTR) rəhbəri ilə keçirdiyi görüş və verdiyi dəstək bəyanatları Türk Dövlətləri Təşkilatının birliyi və güclənməsi baxımından əlamətdar hadisədir. Azərbaycanın ŞKTR-ə açıq dəstəyi, rəsmi Bakının milli maraqlara və qardaş ölkələrə qarşı prinsipial mövqeyini nümayiş etdirir. Bu yanaşma türk dünyasının siyasi və mədəni inteqrasiyasını dərinləşdirir və beynəlxalq münasibətlər sistemində yeni güc qütbünün formalaşmasına zəmin yaradır. "Antalya Diplomatiya Forumu kimi beynəlxalq platformalarda Azərbaycan Prezidentinin fəallığı və apardığı çoxşaxəli diplomatik dialoqlar ölkənin qlobal nüfuzunun artdığını göstərir. Regionda sabitliyin, əməkdaşlığın və qarşılıqlı etimadın möhkəmləndirilməsində Azərbaycan liderliyinin rolu bir daha ön plana çıxır. Bu proseslər təkcə ölkənin maraqlarını deyil, bütövlükdə türk dünyasının və Cənubi Qafqazın strateji gələcəyini müəyyənləşdirir", - deyə o əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qarabağ Universitetində "Ulu Öndər Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda konfrans keçirilib

**2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi münasibətilə aprelin 14-də Baş Prokurorluğun və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Ulu Öndər Heydər Əliyev və suveren Azərbaycan" mövzusunda konfrans keçirilib.**




Konfransda prokurorluq, hüquq-mühafizə və məhkəmə orqanlarının əməkdaşları, təhsil işçiləri, tələbələr, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin büstü ziyarət edilərək önünə gül dəstələri qoyulub, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı açan Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyinin tam bərpasından sonra Xankəndidə fəaliyyətə başlayan Qarabağ Universitetinin qarşısında dayanan prioritetlərdən bəhs edib. Rektor qeyd edib ki, Qarabağ Universiteti yalnız ali təhsil müəssisəsi kimi deyil, həm də regionun elmi-intellektual mərkəzi kimi formalaşmaq yolundadır. Şahin Bayramov xüsusilə vurğulayıb ki, universitetin fəaliyyətində Heydər Əliyev irsinin, dövlətçilik prinsiplərinin və suverenlik dəyərlərinin təbliği əsas istiqamətlərdəndir.

Elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək, Heydər Əliyev irsinin təhsil sistemində milli ideologiyanın və dövlətçilik dəyərlərinin formalaşmasındakı rolunu diqqətə çatdırıb. Bildirib ki, gənc nəslin tərbiyəsi mühüm əhəmiyyət kəsb edir, hər bir gəncimiz tariximizə ehtiramla yanaşıb onu dərindən mənimsəməli, xüsusən xalqımızın qanı bahasına əldə edilmiş suverenliyimizin təminatını özlərinə ən ümdə məqsəd bilməlidirlər. Nazir həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, o cümlədən Qarabağda təhsil infrastrukturunun yenidən qurulmasının və təhsilin keyfiyyətli şəkildə bərpasının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu ərazilərdə təhsil sistemi yalnız fiziki olaraq deyil, həm də mənəvi və ideoloji cəhətdən tam suveren Azərbaycan modelinə uyğun şəkildə yenidən formalaşdırılır.

Baş prokuror Kamran Əliyev çıxışında Ulu Öndər Heydər Əliyevin suveren Azərbaycanın hüquqi əsaslarının formalaşdırılmasında müstəsna tarixi rolunu, Qarabağ bölgəsinə və ümumilikdə ərazi bütövlüyümüzə dair prinsipial mövqeyini qeyd edərək, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Baş prokuror bildirib ki, Ümummilli Liderin dövlət quruculuğu və hüquqi islahatlar sahəsindəki fəaliyyəti nəticəsində bu gün Azərbaycanda müstəqil, demokratik və hüquqi dövlət bərqərar olub.

Kamran Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olması ilə yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri olduğunu vurğulayıb.

Həmçinin çıxışda Ali Baş Komandanın rəhbərliyi altında 2020-ci ildə Azərbaycan Ordusunun Ermənistan Respublikasının silahlı qüvvələrinə qarşı əks-hücum həmləsi ilə başladılmış 44 günlük Vətən müharibəsindən, 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən həyata keçirilən lokal antiterror tədbirlərindən danışılıb. Bildirilib ki, 30 ilə yaxın işğal altında olan torpaqlarımız tarixi Qələbə nəticəsində azad edilib. Dövlətimizin ərazi bütövlüyünün tam bərpa olunması ilə yanaşı, milli qürurumuzun bərpası həm də dünyaya ədalətin gec, ya da tez bərqərar olduğuna dair bir mesajdır.

Tarixə nəzər salan baş prokuror SSRİ Nazirlər Sovetinin 14 oktyabr 1988-ci il tarixli qərarı ilə Xankəndi Pedaqoji İnstitutunun fəaliyyətinin dayandırılmasından illər sonra Prezident İlham Əliyevin 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalamasını, 2024-cü il sentyabrın 20-də universitetin təmirindən sonra açılışında şəxsən iştirak edərək, müəllim və tələbə heyəti ilə görüşməsini növbəti dəfə tarixi ədalətin bərqərar edilməsi kimi qiymətləndirib.

Tədbirdə həmçinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edib. O, çıxışında Qarabağın suveren Azərbaycan dövləti çərçivəsində inteqrasiyası, dövlət idarəçiliyinin bərpası və bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər barədə məlumat verib, Heydər Əliyev irsinin bu prosesdə yolgöstərici rolunu xüsusi vurğulayıb.

Konfrans çərçivəsində "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin direktoru Telman Kərimli, Xankəndi Şəhər Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev, Xankəndi şəhər prokuroru Rəşadət Orucov və Qarabağ Universitetinin Humanitar və sosial elmlər fakültəsinin tarix müəllimi Bilal Dədəyev çıxışlarında Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, hüquqi islahatlara yanaşması və suverenliyin qorunması istiqamətində atdığı addımlardan ətraflı bəhs ediblər. Məruzəçilər 1995-ci il Konstitusiyasına əsaslanan hüquqi bazanın bu gün də ölkənin inkişafına möhkəm zəmin yaratdığını bildiriblər.

Daha sonra Qarabağ Universitetinin "Maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi" (ECOLEAD) layihəsinə qoşulmasına dair tərəfdaşlar adından baş prokurorun müavini Heydər Məmmədovla həmin təhsil müəssisəsinin rektoru Şahin Bayramov arasında memorandum imzalanıb.

Konfransda Baş Prokurorluq və Azərbaycan Televiziyası QSC ilə birgə ərsəyə gətirilmiş "Azərbaycanın suverenlik yolu" adlı qısametrajlı sənədli film nümayiş etdirilib.

# IV Antalya Diplomatiya Forumu başa çatıb

**Türkiyədə keçirilən IV Antalya Diplomatiya Forumu (ADF 2025) başa çatıb. AZƏRTAC xəbər verir ki, beynəlxalq tədbirin yekununda Türkiyənin xarici işlər naziri Hakan Fidan mətbuat konfransı keçirib.**

Çıxışı zamanı forumun işini yüksək qiymətləndirən nazir tədbirin sadəcə geosiyasi məsələlər deyil, bəşəri problemlərə də evsahibliyi etdiyini deyib: "Üç gün ərzində burada irqçiliklə mübarizə, qadın hüquqlarının qorunması kimi bir çox bəşəri məsələlər müzakirə olundu. Tədbir əsnasında bir çox ikitərəfli görüşlər, panellər, toplantılar keçirildi. İştirakçılar da öz baxışları çərçivəsində dünyanın müxtəlif bölgələrindən olan həmsöhbətləri ilə görüşmək imkanı əldə etdilər. Bütün bunlar forumumuzun birləşdirici gücünü bir daha nümayiş etdirdi. Forumda eyni zamanda dünya düzəninə dair suallara cavab axtardıq. Dünyanın müxtəlif sınaqlardan keçdiyi bu dövrdə qlobal diplomatiyada da yeni bir ağıla, yeni bir dilə və cəsur addımlara ehtiyac duyulur. Bütün qlobal hadisələrin müzakirəsi diplomatiyaya olan ehtiyacı bir daha göstərdi. Türkiyə dünyada baş verən qarşıdurmaların aradan qaldırılmasında konstruktiv və vasitəçi mövqeyini, yenidən formalaşan Avropa təhlükəsizlik mexanizmində aktiv rolunu davam etdirəcək. Avropanın da bu fəaliyyətimizə lazımi qarşılıq verəcəyinə ümid edirik".

Hakan Fidan çıxışı zamanı forumun həyata keçirilməsində iştirak edən və tədbirdə verilən mesajların dünya ictimaiyyətinə çatdırılmasına dəstək olan media nümayəndələrinə təşəkkür edib.

Sonra nazir jurnalistləri maraqlandıran sualları cavablandırıb.

Türkiyənin XİN başçısı Azərbaycanla bağlı sualı cavablandıraraq bildirib: "Azərbaycan Prezidenti İlham Əliyev xüsusilə Suriya məsələsində Türkiyə ilə yaxın məsləhətləşmələr aparır. Azərbaycanla Suriyanın inkişafı, iqtisadiyyatı, infrastrukturu, təhlükəsizliyinə birlikdə nə cür töhfə verə biləcəyimizlə bağlı məsləhətləşmələrimiz davam edir. Təbii ki, bu mövzuda Azərbaycanın verdiyi və verəcəyi hər bir töhfə dəyərlidir. Azərbaycanın bu mövzuda Türkiyə ilə koordinasiyalı şəkildə apardığı siyasəti son dərəcə təqdir edirik".

Nazir Türkiyə ilə Azərbaycanın bir çox sahədə əməkdaşlıq etdiyini, Suriyaya dəstək məsələsinin də bu əməkdaşlıqlardan biri olduğunu qeyd edib.

Azərbaycanla bağlı suallardan biri də İsrail ilə Türkiyə arasında Bakıda keçirilən görüş olub. Bunu cavablandıran nazir deyib: "Azərbaycan bizim üçün qardaş ölkədir və bu təmaslara yaradılan şəraitə görə təşəkkür edirik".

Qeyd edək ki, üç gün davam edən IV Antalya Diplomatiya Forumuna yüzə yaxın dövlət və hökumət başçısı, nazirlər, deputatlar, QHT-lər, dünyanın tanınmış ictimai-siyasi xadimləri, mətbuat qurumlarının nümayəndələri də daxil olmaqla, dünyanın 155 ölkəsindən ümumilikdə altı mindən artıq iştirakçı qatılıb. Prezident İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilk dəfə ADF-də iştirak ediblər.

Tədbirdə bir çox qlobal hadisələrlə yanaşı, Cənubi Qafqazdakı son vəziyyət, Azərbaycanla Ermənistan arasında imzalanacaq Sülh sazişi, Qərbi Azərbaycan və qərbi azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıdışı, iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin rolu, o cümlədən Bakıda keçirilən COP29, Türk Dövlətləri Təşkilatının fəaliyyəti kimi ölkəmizi maraqlandıran məsələlər də müzakirə edilib.

Azərbaycan tədbirdə Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş heyətlə təmsil olunub.

Xatırladaq ki, Antalya Diplomatiya Forumunun əsas məqsədi dünyada baş verən böhranların həllinə diplomatiya vasitəsilə töhfə verməkdir.

# "Bizim həyət" layihəsi çərçivəsində yenilənmiş növbəti həyət sakinlərin istifadəsinə verilib















**Aprelin 13-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 1400-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Leyla Əliyeva IDEA könüllüləri ilə birlikdə keçirilən ağacəkmə aksiyasında iştirak ediblər. Həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim olunub.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi yenidən qurulmuş növbəti həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş



qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb. Eyni zamanda həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 170 ədəd müxtəlif növ ağac və 3100-dən çox mövsümi gül, eləcə də kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyət" layihəsi 2017-ci ildən etibarən icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 157 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin "qaynar xətt"i "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

# Leyla Əliyevanın təşəbbüsü ilə şəhər yaşıllıqlarının inventarlaşdırılması üzrə layihənin növbəti mərhələsi başlanıb









**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2022-ci ildən həyata keçirilən "Bakı şəhərində ağacların qeydiyyatı və nömrələnməsi" layihəsinin növbəti mərhələsinə başlanılır.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanın iştirakı ilə aprelin 13-də Bakı şəhərinin Nərimanov rayonunda yerləşən yeni açılan parkda layihə üzrə ağacların qeydiyyatı aparılıb, üzərinə nömrəli etiketlər vurulub. Eyni zamanda parkın ərazisində 50 ədəd zeytun ağacı əkilib.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin birgə əməkdaşlığı ilə həyata keçirilən layihənin əsas məqsədi yaşıllıqların mühafizəsinin dayanıqlılığını təmin etmək, müdaxilə hallarının aradan qaldırılmasına, dəqiqləşdirilmiş inventarizasiya və reyestr platformasının formalaşdırılmasına, ictimai nəzarətin gücləndirilməsinə nail olmaqdır.



Qeyd edək ki, layihə çərçivəsində artıq "Şəhər yaşıllıqlarının reyestri" informasiya sistemi yaradılıb və Bakı şəhərinin Səbail rayonu ərazisində 25 minə yaxın ağac uçota alınıb, yaxın aylarda üzərilərinə nömrə lövhələri vurulmaqla inventarlaşma prosesinin tamamlanması nəzərdə tutulub.

Eyni zamanda layihənin pilot mərhələdə icrası zamanı Nərimanov rayonu ərazisində yerləşən Atatürk parkı və abad həyət komplekslərində 2 min 352 ağac uçota alınaraq inventarlaşdırılıb. İnventarlaşdırılmış ağacların üzərində hər bir ağacı identikləşdirən inventar lövhələri vurulub.

Ağaclar barədə məlumatların ictimaiyyətə açıq formada təqdim edilməsi məqsədilə **www.agac.az** portalı sınaq rejimində istifadəyə verilib. Təqdim olunan portal Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2025-ci il tarixli, 282 nömrəli Fərmanı ilə Əsasnaməsi təsdiq edilmiş "Rəqəmsal ekologiya" informasiya sisteminin tərkib hissəsi olaraq yaradılmışdır.

Qeydiyyat işləri şəhərin inzibati ərazisində, o cümlədən park, yol kənarı və həyətyanı məhəllələrdə yerləşən bütün yaşıllıqlara şamil edilir. Proses əvvəlcədən təşkil edilmiş qruplar tərəfindən, hər bir ağacın üzərində xüsusi hazırlanmış nömrə etiketləri vurmaqla və həmin ağac barədə dürüst məlumatların elektron bazada yığılması ilə həyata keçirilir. Nömrələnmə ağaclara tam zərərsiz olan üsul ilə aparılır. Ağacın gövdəsinə vurulan etiketlər davamlı materialdan hazırlanır və üzərində ağacın nömrəsi və ağacın fərdi profilinə keçid üçün QR-kod əks olunur.

Bakıda ağacların qeydiyyatı və nömrələnməsi üzrə layihənin tərəfdaşları hər kəsi yaşıllıqların mühafizəsi və artırılmasına dəstək olmağa, təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından növbəti sosial layihə






**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK), Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Konfederasiyanın üzv təşkilatı - Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və "Referans Medical Group"un birgə təşkilatçılığı ilə "Həmkardan həmkara qayğı ilə" adlı yeni sosial layihəyə başlanılıb.**

Layihə çərçivəsində ilk səyyar tibbi müayinə aprelin 10-11-də dağlıq rayon Lerikdə təşkil olunub.

Layihə iştirakçıları tərəfindən əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Lerik şəhərində abidəsi ziyarət olunub. Daha sonra Lerik Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən ödənişsiz səyyar tibbi müayinə zamanı oftalmoloq, otorinolarinqoloq, endokrinoloq, nevroloq, uşaq nevroloqu, infeksionist, pediatr və travmatoloqdan ibarət peşəkar həkim heyəti tərəfindən müayinələr aparılıb, diaqnozlar təyin edilib.

İki gün ərzində ümumilikdə 300-ə yaxın aztəminatlı və ehtiyacı olan vətəndaşa 600-dən çox tibbi xidmət göstərilib. Səhhətində problem aşkarlanan sakinlərə tibbi məsləhətlər verilib, müvafiq müalicələr təyin olunub.





Müayinəyə gələn uşaqlara Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən xüsusi qaygı və diqqət göstərilib, onlara hədiyyələr verilib.

Tədbirin təşkilində AHİK könüllüləri də yaxından iştirak ediblər.

Qeyd edək ki, səyyar tibbi müayinələr AHİK üzvlərinin sağlamlığını qorumaq, tibbi xidmətlərə əlçatanlığı daha da artırmaq və dövlətimizin sosial siyasətinə dəstək vermək məqsədilə təşkil olunur. Layihənin ölkəmizin digər dağ, dağətəyi və sərhədyanı rayonlarında da keçirilməsi nəzərdə tutulur.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# "E-sosial" mobil tətbiqi ABŞ-də keçirilən müsabiqədə "Ən yaxşı yeni mobil tətbiq" kateqoriyası üzrə mükafata layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial" mobil tətbiqi ABŞ-nin "Best Mobile App Awards" müsabiqəsində "Ən yaxşı yeni mobil tətbiq" kateqoriyası üzrə mükafata layiq görülüb.**

https://bestmobileappawards.com/app-submission/e-social?utm_source=badge&utm_medium=badge&utm_campaign=badge

"Best Mobile App Awards" müsabiqəsi müxtəlif kateqoriyalar üzrə ən yaxşı mobil proqramları, iOS və Android üçün mobil tətbiqlərdə innovasiya, yaradıcılıq və praktikliyi tanıtmaq məqsədi daşıyır.

Müsabiqəyə "e-sosial" portalının məqsədi, həmçinin mobil versiyanın funksionallıqlarını nümayiş etdirən vizual materiallar təqdim olunub.



# BƏT-in baş direktoru Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında olub

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Beynəlxalq Əmək Təşkilatının (BƏT) baş direktoru Jilber Hunqbonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Konfederasiya sədri Sahib Məmmədov Azərbaycan həmkarlar ittifaqları ilə BƏT arasında qarşılıqlı faydalı əlaqələrdən danışıb, ölkəmizdə təşkilatın işçi hüquqları ilə bağlı 59 konvensiyasının ratifikasiya olunduğunu qeyd edib.

Bildirilib ki, konfederasiya və BƏT əməkdaşlığı çərçivəsində Azərbaycanda əmək hüquqları ilə bağlı müxtəlif mövzularda konfrans, seminar və "dəyirmi masa"lar təşkil olunub, proqramlar hazırlanıb, layihələr həyata keçirilib.

Azərbaycanda mövcud olan işgüzar mühiti, əmək hüquqlarının daha effektiv müdafiəsinə yaradılan əlverişli şəraiti diqqətə çatdıran konfederasiya sədri ölkəmizdə əməyin mühafizəsi, ittifaq üzvlərinin iş şəraitinin qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması, sağlamlığının qorunması, müalicə və istirahətinin təşkili istiqamətində aparılan davamlı və sistemli tədbirlərdən bəhs edib.

Görüşdə həmçinin Azərbaycan həmkarlar ittifaqları sistemində həyata keçirilən islahatlar və tətbiq olunan yeniliklər, "AHİK Könüllüləri", "Layiqli Əmək Səfirləri" və "AHİK Plus" layihələri, eləcə də "Kurort" Turizm İnformasiya Mərkəzi haqqında BƏT nümayəndələrinə ətraflı məlumat verilib.

Konfederasiya sədri əmək hüquqları, iqlim dəyişmələri və gender məsələləri ilə bağlı BƏT-lə bir sıra layihələrin nəzərdə tutulduğunu vurğulayıb.

BƏT-in baş direktoru Jilber Hunqbo Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, rəhbəri olduğu təşkilatla AHİK-in səmərəli əməkdaşlığından, həyata keçirilən layihələrin əhəmiyyətindən danışıb, əlaqələrin səviyyəsini yüksək dəyərləndirib.

Jilber Hunqbo BƏT-in qərar və tövsiyələrinin həmkarlar ittifaqlarının effektiv fəaliyyəti üçün önəmini qeyd edib və bu məsələlərə konfederasiyanın daim həssas yanaşdığını bildirib.

Tərəflər əməkdaşlığın inkişafı istiqamətləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıblar.

Görüşdən sonra BƏT-in baş direktoru Jilber Hunqbo və nümayəndə heyətinin üzvləri "Kurort" Turizm İnformasiya Mərkəzində yollayışların verilməsi prosesində tətbiq edilən yeniliklərlə, eləcə də yeni yaradılmış Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi ilə tanış olublar.

***Bəhmən MİRZƏYEV,***
***"Azərbaycan"***



# Azərbaycan "Böyük Çin səddi"ni sürətlə keçir

## Ölkələrimiz arasında strateji əməkdaşlıq qarşılıqlı maraqlara xidmət edir

**"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin iki ölkənin qarşılıqlı əlaqələrində özünəməxsus yeri var. Bu mühüm sənəd keçən il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünün nəticəsində qəbul olunub.**



Bu il aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda dövlətimizin başçısı həmin bəyannamənin ikitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətli nailiyyət olduğunu bir daha qeyd edib. Xatırladaq ki, bəyannamədə tərəflər Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, "yaşıl enerji", emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və digər sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazır olduqlarını bildirmişlər. Sənədə əsasən, tərəflər eləcə də sənayeləşmə və investisiya üzrə əməkdaşlıq mexanizmindən tam istifadə edəcək, baxış, planlaşdırma və siyasət sahəsində əlaqələri artıracaqlar. Azərbaycan və Çin şirkətlərinin fəaliyyətini dəstəkləyəcək, enerji, o cümlədən neft və qaz hasilatı və emalı, "yaşıl enerji" və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edəcəklər. Bu və digər sahələrdə əməkdaşlığın hər iki ölkə və onların xalqları üçün faydalı nəticələr verəcəyi şübhəsizdir və bəyannamədə də belə deyilir.

ADA Universitetindəki tədbirdə dövlətimizin başçısı bir daha vurğulamışdır ki, Çin kimi nəhəng ölkə ilə strateji tərəfdaşlıq formatına nail olmaq bizim üçün olduqca vacibdir: "Biz hazırda Çin şirkətləri ilə fəal çalışırıq. Biz onları müxtəlif sahələrdə strateji tərəfdaşımız olmağa dəvət etmişik, o cümlədən "yaşıl enerji" sahəsində. Deyə bilərəm ki, "yaşıl ictimai nəqliyyat vasitələri" istehsal edən Çin şirkəti tərəfimizdən seçilib və bu il artıq istehsal edilmiş ilk avtobuslar istifadəyə veriləcək. Bununla yanaşı, Çin şirkətləri günəş panelləri təchizatçılarıdır və bu panellər Azərbaycanda başqa ölkələrin sərmayəsi ilə inşa edilən stansiyalarda istifadə olunur. Biz həmçinin Çin şirkətləri ilə "yaşıl enerji" sahəsinə birbaşa sərmayə yatırılması istiqamətində də danışıqlar aparırıq".

Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsini ilk gündən dəstəkləyib. Bu özünü təkcə ictimai bəyanatlarla deyil, həm də sərmayə yatırımında da göstərib. "Biz Xəzər dənizinin ən böyük limanını inşa etdik. Bu gün bizim gəmiqayırma zavodumuzda altı gəmi inşa olunur. Bu zavodun sifariş siyahısı doludur. Biz dəmir yollarımızı müasirləşdirdik, hətta Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstandan keçən hissəsinə əlavə investisiya yatırdıq. Hazırda onun yükötürmə qabiliyyəti 5 milyon tondur. Zənnimizcə, Çindən gələn yüklərin bir hissəsi Zəngəzurdan, Zəngilan istiqamətindən keçə bilər", - deyə Prezidentimiz bildirmişdir.

Azərbaycan Qlobal Cənubun fəal ölkəsidir və Çin burada çox vacib rol oynayır. Çin bizim 4 il sədrlik etdiyimiz Qoşulmama Hərəkatının üzvüdür. Beləliklə, bu, çoxşaxəli münasibətdir, olduqca güclüdür və böyük gələcək potensialı var.

Prezident İlham Əliyev cari il yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində də bunları vurğulamışdır: "Bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik".

COP29-da Azərbaycanın "yaşıl gündəliy"i dünyaya bir daha bəlli oldu. Qeyd edək ki, ölkəmiz "yaşıl enerji" layihələrini bir sıra xarici tərəfdaşlari ilə həyata keçirir. Konkret olaraq Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın BP şirkətləri ilə. Prezidentimiz müsahibəsində qeyd etmişdir ki, bu layihələrə sərmayə yatıran xarici şirkətlər, eləcə də Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər: "Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və biz ən yaxşı batareyaların Çində istehsal olunduğunu müəyyən etmişik. Mən bu möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir".

İndi Çin şirkətləri təkcə xidmət və texnologiyaların təmin edilməsində yox, həmçinin Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar və bu proses artıq gedir. Məlum olduğu kimi, COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi barədə müqavilə imzalanmışdır. Beləliklə, biz Mərkəzi Asiya ilə Azərbaycanı və potensial olaraq Çini enerji kabeli ilə bir-biri ilə bağlayacağıq. Digər bir layihədə belə bir kabel xətti Qara dənizin dibi ilə Azərbaycandan Avropaya uzanacaq. Xatırladaq ki, söhbət 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə əsasən reallaşdırılan layihədən gedir.

"Bu, növbəti bir bağlantı layihəsidir. Bu, "yaşıl enerji" üçün bir dəhlizdir və onun nəhəng potensialı var. Çünki Azərbaycanın külək və günəş enerjisi potensialı artıq bəllidir və bu, bizim təsəvvürə gətirə biləcəyimizdən qat-qat artıqdır. Beləliklə, bizə bazarlar, texnologiya və əməkdaşlıq lazımdır. Çünki qonşu ölkələr arasında əməkdaşlıq olmadan bu layihələrin icrası mümkün deyil", - deyə Prezident İlham Əliyev vurğulamışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Robert Köçəryanın azərbaycanlılara qarşı milli ədavət və düşmənçilik ideyalarını təbliğ etməsi ifşa edilib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 14-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmənin baxış iclası zamanı baş prokurorun böyük köməkçisi Vüsal Əliyev Azərbaycanın suveren ərazilərinin Ermənistan tərəfindən işğalı ilə bağlı ibtidai istintaq zamanı toplanmış sənədləri, o cümlədən hadisə yerinə baxış protokolları, onlara əlavə olunan fotomaterialları, zərərçəkmiş şəxslərin və şahidlərin ifadələrini, ibtidai istintaq zamanı 1990-cı illərin əvvəllərində şübhəli və təqsirləndirilən şəxs qismində dindirilmiş erməniəsilli şəxslərlə bağlı ekspert rəylərini açıqlayıb.

Vurğulanıb ki, SSRİ Baş prokurorunun böyük köməkçisi, II dərəcəli dövlət ədliyyə müşaviri Nikolayev tərəfindən Azərbaycan əraziləri olan Xocalı, Şuşa və Xankəndidə ermənilərin müxtəlif cinayətlər törətmələri faktları ilə bağlı 1988-ci il sentyabrın 19-da Azərbaycan SSR-in Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılaraq ibtidai istintaqın aparılması SSRİ Prokurorluğunun istintaq qrupuna həvalə edilib.

SSRİ Baş Prokurorluğunda başlanmış cinayət işində vaxtilə şahid qismində dindirilmiş Artur Abramyanın elan olunmuş ifadəsinə əsasən, Qarabağdakı mitinqə Arkadi Manuçarov, Zori Balayan, Henrik Poqosyan, Maksim Babayan, tikinti idarəsinin rəisi Roles Aqacanyan, Vladik Sarkisyan və tanımadığı digər şəxslər rəhbərlik ediblər. Murad Petrosyan və Serj Sarkisyan aralarındakı razılaşmaya əsasən Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrinin silahlandırılmasını həyata keçiriblər.

Bundan başqa, Azərbaycan ərazilərində olan qanunsuz erməni silahlı birləşmələrinə maddi yardım Yerevan şəhərindən edilib, pul vəsaitlərini Ermənistan Ali Sovetinin sədri Ter-Petrosyanın müavini Vazgen Manukyan öz adamları vasitəsilə Azərbaycan ərazilərinə göndərib. Həmin pulları Azərbaycan ərazilərində Robert Köçəryan qəbul edərək qanunsuz erməni silahlı birləşmələrinə paylayıb. Eləcə də Şuşa-Xankəndi avtomobil yolunun 14-cü kilometrliyində - Xəlfəliçay çayının üzərindən keçən körpünün partladılması barədə göstərişi Murad Petrosyan verib.

Həmin cinayət işi üzrə Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal edilmiş suveren ərazilərində mövcud olmuş qondarma rejimin "müdafiə naziri", "Təhlükəsizlik şurasının katibi" olmuş Samvel Babayan ibtidai istintaq zamanı şübhəli və təqsirləndirilən şəxs qismində 1990-1991-ci illərdə verdiyi ifadələrində bildirib ki, 1991-ci ilin aprelində Yevlax-Laçın avtomobil yolunda mülki sərnişin avtobusunu partladan Samvel Baqmanyan Murad Petrosyanın ümumi rəhbərlik etdiyi qanunsuz erməni silahlı birləşmələrinin üzvü olub. M.Petrosyan isə Robert Köçəryanın komandasına xidmət edib.

Şahid qismində dindirilmiş Yuriy Cahangiryan ifadəsində göstərib ki, Qarabağ İpək Kombinatında partiya təşkilat katibi vəzifəsində çalışan Robert Köçəryan "Krunk" adlı erməni millətçi təşkilatının fəal üzvü kimi çıxış edərək, azərbaycanlılara qarşı milli ədavət və düşmənçilik ideyalarının təbliğinə başlayıb.

Bundan sonra məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların təqsirləndirilən şəxslərə suallar verməleri ilə davam etdirilib.

Təqsirləndirilən Arkadi Qukasyan elan olunan ifadələr və təqdim edilən digər sübutlarla bağlı dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırmaq üçün məhkəmədən növbəti iclasadək ona vaxt verilməsini xahiş edib.

Məhkəmə iclasına sədrlik edən hakim onun xahişini nəzərə alıb və növbəti məhkəmə iclasında sualları cavablandırmasına şərait yaradılacağını bildirib.

Daha sonra təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamını müdafiə edən baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin, dövlət ittihamçıları Fuad Musayevin və Vüsal Abdullayevin suallarını cavablandıraraq deyib: "1990-cı illərdə Robert Köçəryan, Murad Petrosyan, Manuçuryan və digərləri Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində mitinqləri təşkil edənlər və "hərəkat"ın önündə gedənlər olublar". O, 1988-1990-cı illərdə Xankəndidə yaşayan azərbaycanlıların evlərini necə qoyub getmələrini də xatırladığını bildirib və əlavə edib: "Körpünün (Xəlfəliçay üzərindəki körpü - red.) partladılmasını da xatırlayıram".

O, hansısa küçədə azərbaycanlıların evlərinin yandırılması, qətllər, qarətlər barədə eşitdiyini bildirib. Buna baxmayaraq, təqsirləndirilən şəxs hadisələrin məhkəmədə açıqlanan miqyasda olması barədə məlumatsız olduğunu iddia edib və qeyd edib: "Bilmirdim ki, bu qədər qətl, zorakılıq olub. Cinayət işlərinin açılmasından da məlumatsız idim. Eşidirdim, görürdüm ki, Xankəndidə azərbaycanlıların hərəkət etmələrində, məsələn, dükandan nəsə almalarında problem var idi. Oradakı azərbaycanlıların evlərindən getmələrinə gəlincə, dəqiq budur ki, onlar bunu könüllü etməyiblər".

Təqsirləndirilən şəxs qətllərin olmasını da təsdiqləyərək deyib: "Bəli, çoxlu qətllər, hətta ermənilərin erməniləri öldürdükləri faktlar da olub. Yəni ermənilər təkcə azərbaycanlılara qarşı olmayıblar, orada məişət, siyasi zəmində ermənilərin erməniləri öldürmələri halları olub. Xankəndidə, Qarabağda yüksəkvəzifəli şəxsi öldürüblər".

A.Harutyunyan Xankəndidə öldürülən vəzifəli şəxsin adını da açıqlayıb və əlavə edib: "Adı Valeri Qriqoryandır. Onun qətli ilə bağlı müxtəlif versiyalar var. Biri o idi ki, o, Bakıya gedərək azərbaycanlılarla görüşüb. İkinci versiya o idi ki, vəzifə üçün öldürülüb. Fakt bu idi ki, Bakıdan qayıdandan sonra öldürülüb, deməli, birinci variant daha uyğundur".

O, dindirilmə zamanı Samvel Babayanın 2000-ci ildə Arkadi Qukasyana qarşı sui-qəsd törətməsindən də danışıb, onu məcburiyyətdən "Təhlükəsizlik şurasının katibi" təyin etdiyini bildirib.

A.Harutyunyan Murad Petrosyanı isə 2010-2012-ci ildən sonra tanıdığını bildirib: "Ondan əvvəl isə onun barəsində eşitmişdim. Bir neçə il əvvəl öldü. Petrosyanla bir komandada olmamışıq. O, mənə qarşı olub. Biz əks qütblərdə olmuşuq".

Bu zaman məhkəmədə sənəd tədqiq olunub. Sənədə əsasən məlum olub ki, A.Harutyunyan M.Petrosyan vəfat edərkən başsağlığı verib, onun barəsində xoş sözlər yazıb, fəaliyyətini yüksək qiymətləndirib.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan isə baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında Xəlfəliçay üzərindəki körpünün partladılması barədə eşitdiyini deyib. O, məhkəmədə əməlləri sadalanan Murad Petrosyanla ünsiyyətinin olmadığını da vurğulayıb və bildirib: "O, 2020-ci ildə Xankəndidə yolu bağlayan etirazçıları müdafiə edirdi".

Ardınca dövlət ittihamçısı Təranə Məmmədova tərəfindən Bako Sahakyan və David İşxanyana suallar verilib.

Təqsirləndirilən şəxs Bako Sahakyan körpünün partladılmasını pislədiyini qeyd edərək deyib: "Bu kimi halları tənqid edir və pisləyirəm".

Təqsirləndirilən şəxs David İşxanyan suallara cavab verərkən Xəlfəliçay çayı üzərindəki körpünün partladılması hadisəsi barədə məlumatsız olduğunu, bu barədə ilk dəfə məhkəmədə eşitdiyini bildirib.

Daha sonra məhkəmədə Bağanıs-Ayrım epizodu üzrə hadisə yerinə baxış protokolları, zərərçəkmiş şəxslərin və onların hüquqi varislərinin ifadələri, habelə ekspertiza rəyləri açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 17-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan David Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Şərtimiz dəyişməzdir

### Sülh müqaviləsi üçün Ermənistanın konstitusiyası dəyişməli, Minsk qrupu ləğv edilməlidir

**İkinci Qarabağ müharibəsindən ötən 5 ilə yaxın müddətdə qalib Azərbaycanın Ermənistana təklif etdiyi sülh sazişi hələ də yalnız müzakirə mövzusu olaraq qalır. Hər ay demək olar ki, sülh müqaviləsinin imzalanma prosesinə bir qədər də yaxınlaşma haqqında xəbərlər yayılır. Xüsusən də Ermənistan tərəfindən qeyd edilir ki, məsələlər razılaşdırılıb və müqavilənin imzalanması çox yaxındadır. Lakin bu "vəd"lərə artıq inanmağımız gəlmir. Çünki erməni xisləti bütün dünyaya bəllidir. Ona görə də Hayastanın sülh prosesində müsbət addım atması inandırıcı görünmür.**



Bu, artıq dəfələrlə sübuta yetirilmiş reallıqdır. Hər dəfə sülh müqaviləsinin imzalanması ilə bağlı gündəm yarananda Ermənistan maskalanaraq buna hazır olduğunu bəyan edir. Ancaq iş əmələ çatanda bəlli olur ki, bütün bunlar vaxt qazanmaq üçün edilən imitasiyadır.

Hələ mart ayında Bakıda keçirilən XII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov bəyan etmişdi ki, Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Son iki açıq maddə qalıb. Bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycanın təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə bizə çatdırıb. Ona görə mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd edə bilərik.

Nazir həmçinin söyləmişdi ki, növbəti addım olaraq Azərbaycan tərəfinin gözləntisi Ermənistanın konstitusiyasından və digər normativ-hüquqi aktlarından ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə olan iddiaların çıxarılmasıdır. Təbii ki, bu, sazişin imzalanması üçün labüd şərtdir. Bundan əlavə, keçmiş münaqişənin qalıqları olan Minsk qrupu və onun digər təsisatlarının ləğv edilməsi də vacib amildir.

Bunun ardınca Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat yaymışdı. Bəyanatda deyilirdi: "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını məmnunluqla qeyd edirik. Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın uzunmüddətli və prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq. Eyni zamanda ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayırıq. İki ölkə arasında normallaşma prosesi ilə bağlı bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazırıq".

Həmin gün Ermənistan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda isə sülh müqaviləsinin mətninin son iki bəndinin razılaşdırılması ilə bağlı xəbər təsdiqlənmişdi. Bundan əlavə, İrəvan Bakı ilə sülh müqaviləsinin imzalanma vaxtı və yerini müzakirə etməyə hazır olduğunu bildirmişdi.

Ermənistanın baş naziri Nikol Paşinyan da həmin gün məlumatı təsdiqləmiş, parlament binası yaxınlığında jurnalistlərə açıqlama verərək demişdir ki, Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətni üzrə danışıqlar razılaşma ilə başa çatıb və bu, mühüm hadisədir: "Biz artıq qeyd etmişik ki, mətn imzalanmağa hazırdır, imzalanma tarixləri və yeri ilə bağlı müzakirələrə başlamağa hazırıq. Azərbaycan Xarici İşlər Nazirliyi ikitərəfli formatda müzakirələrə başlamağa hazır olduqları barədə bəyanat yayıb. Onların öz ideyaları var, bizim öz ideyamız var və güman edirəm ki, bu müzakirələr zamanı biz bu ideyaları bir-birinə yaxınlaşdırmağa çalışacağıq".

Azərbaycan və Ermənistan arasında müzakirə olunan sülh sazişi layihəsi preambula və 17 maddədən ibarətdir. Preambula və 15 maddə razılaşdırılmışdı. Razılaşdırılmayan iki maddə beynəlxalq məhkəmələrdə iddialardan qarşılıqlı imtina və üçüncü dövlətlərin qoşunlarının sərhəddən çıxarılması ilə bağlı idi.

Azərbaycan dəfələrlə erməni tərəfinin daha iki şərti də həyata keçirməli olduğunu xatırladıb. Birincisi, Ermənistan konstitusiyasını dəyişməlidir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunub.

Aprelin 11-13-də Türkiyədə keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında keçirilən görüşdə də bu məsələlər bir daha müzakirə edilib. Tərəflər "Azərbaycan ilə Ermənistan arasında Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" sazişin mətninin yekunlaşdırılmasından sonra normallaşma prosesinin hazırkı vəziyyətini müzakirə ediblər. Nazirlər dialoqu davam etdirməyə hazır olduqlarını bildiriblər.

Nazir Ceyhun Bayramov "Anadolu" agentliyinə müsahibəsində deyib ki, Azərbaycan Ermənistanın 30 illik işğalına son qoymaqla iki ölkə arasında münasibətlərin normallaşması və Cənubi Qafqaza sülhün gəlməsi üçün fürsət yaranıb.

O, rəsmi Bakının 2021-ci ildə İrəvana düşmənçilik səhifəsini bağlamağı təklif etdiyini və bu çağırışın təxminən bir il cavabsız qaldığını xatırladıb: "2022-ci ilin ilk aylarında sülh razılığının beş əsas bəndini Ermənistana təqdim etdikdən sonra həmin ilin oktyabr ayında ölkələr arasında müzakirələr başlayıb. Sülh sazişinin ilk layihəsi də Azərbaycan tərəfindən yazılıb və Ermənistana təqdim edilib. Danışıqlar təxminən iki il yarım çəkib. Təxminən bir ay əvvəl müzakirələr başa çatıb və mətnlə bağlı razılıq əldə olunub. Danışıqlar davam edərkən biz Ermənistanı və prosesdə maraqlı olan digər ölkələri bu məsələlərlə bağlı məlumatlandırmışıq. Həll edilməli olan mühüm amillər mövcuddur. Bunlardan ən önəmlisi Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların yer almasıdır. Bu davam etdikcə, sülh sazişinin imzalanması mümkün deyil. Ermənistan konstitusiyasının dəyişdirilməsi vacibdir".

Nazir həmçinin qeyd edib ki, Azərbaycanın daha bir şərti 1990-cı illərdə Qarabağ münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə bağlıdır: "ATƏT-in Minsk qrupu 30 ildir heç bir nəticə əldə etməyib. Artıq Qarabağ məsələsi həll olunub və bu ərazilər Azərbaycanın bir hissəsidir. Ermənistan da bunu qəbul edib. Belə olan halda Ermənistanın Minsk qrupunun fəaliyyətini davam etdirmək üçün davamlı səyləri bizdə suallar doğurur. Biz israrla Minsk qrupunun buraxılmasını tələb edirik və gözləyirik".

Baş verən proseslər və Ermənistan tərəfindən verilən açıqlamalara etibar etsək, iki ölkənin sülh sazişini imzalamağa bir qədər də yaxınlaşdığını söyləyə bilərik.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## "Xristian klubu"nun böhtanları bitmək bilmir

### AŞPA prezidentinin ifadələri isə siyasi əxlaqsızlığın nümunəsidir



**"Ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması, dünyada söz sahibinə çevrilməsi bir sıra böyük beynəlxalq iqtisadi layihələrdə vacib tərəf kimi çıxış etməsi Azərbaycana düşmən qüvvələri, dövlətləri, xüsusilə, erməni lobbisini çox narahat edir. Korrupsiya və rüşvətxorluğa qurşanmış AŞPA beynəlxalq təşkilat statusundan çıxaraq müəyyən dövlətlərin, qüvvələrin əlində alətə çevrilib".**

Bu sözləri "Azərbaycan" qəzetinə Bakı Dövlət Universitetinin kafedra müdiri Kamilə Əliyeva deyib. Bu qurumun mütəmadi olaraq Azərbaycana qarşı qərəzli, böhtan xarakterli qərar və qətnamələr qəbul etdiyini vurğulayan ekspert bildirib ki, bu qərəzli sənədlərin qəbul edilməsinin arxasında Azərbaycana qarşı düşmən qüvvələrin dayandığı heç kimə sirr deyil: "AŞPA-nın başıpozuq bir quruma çevrilməsinə səbəb ona yarıtmaz, başqalarının əlində oyuncaq olan insanın rəhbərlik etməsidir. AŞPA Prezidenti Teodoros Rusopulosun "Alpha News" qəzetinə müsahibəsi zamanı ölkəmizə qarşı səsləndirdiyi fikirlər bu şəxsin nadanlığından, beynəlxalq siyasətdən anlayışı olmamasından xəbər verir. Azərbaycanla bağlı işlətdiyi ifadələr heç bir çərçivəyə sığmır, mədəniyyətsizliyin, siyasi əxlaqsızlığın nümunəsidir. Hazırda AŞPA-nın fəaliyyəti acınacaqlı vəziyyətdədir. Bu, ona rəhbərlik edən şəxsin diktator təfəkkürlü olmasından, eləcə də siyasi əqidəsizliyindən irəli gəlir. Avropa Şurası nizanaməsinin pozulması, AŞPA-nın səlahiyyətlərini aşması nəticəsində Azərbaycan əleyhinə addımlar atılır. Azərbaycan tərəfinin dialoqa açıqlıq nümayiş etdirməsinə baxmayaraq, Rusopulos, Şvabe və bir sıra şəxslər ölkəmizə qarşı düşmən mövqe nümayiş etdirir, dövlətimizin beynəlxalq hüququn norma və prinsiplərinə və ədalətə söykənən mövqeyinə kölgə salmağa çalışırlar".

K.Əliyeva xatırladıb ki, AŞPA-nın Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və siyasi cəhətdən heç bir əsası olmayan qərarının qəbul edilməsinin lehinə səs vermiş 76 üzvünün, o cümlədən Teodoros Rusopulosun adları haqlı olaraq qara siyahıya salınıb və onların Azərbaycana gəlməsi mümkün deyil. Kimliyindən, hansı təşkilatı təmsil etməsindən asılı olmayaraq, Azərbaycana qarşı haqsız, ədalətsiz, eləcə də düşmən mövqe nümayiş etdirən hər kəs dövlətimiz tərəfindən layiqli cavab alacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi pozmağa çalışır

**Azərbaycan İkinci Qarabağ müharibəsində düşmən ölkə olan Ermənistan üzərində qazandığı möhtəşəm Zəfər ilə regionda yeni reallıqlar yaradıb. Ən başlıcası isə 30 ilə yaxın davam edən erməni işğalına son qoyub, Ermənistan silahlı qüvvələrini diz çökdürüb. Azərbaycan qalib ölkə kimi müharibədən sonra bölgədə sülhün təmin olunması istiqamətində davamlı təşəbbüslər göstərib. Regiona əmin-amanlıq gətirmək üçün müəyyən şərtlər əsasında Ermənistana sülh təklif edib, bu istiqamətdə inamlı addımlar atıb.**



Amma təəssüflər olsun ki, Avropa İttifaqı Cənubi Qafqazda sülhün, əmin-amanlığın olmasını istəmir. Buna görə də Azərbaycanla Ermənistan arasında aparılan danışıqlarda hansısa bir razılaşma məsələsində irəliləyiş nəzərə çarpan kimi bu qüvvələr çirkin məqsədlərinə çatmaq üçün müxtəlif yollarla regiona sabitlik və əmin-amanlıq gətirəcək sülhə mane olmağa çalışırlar. Avropa İttifaqı Ermənistana "mülki missiya" adı altında kəşfiyyatçılarını göndərib. Yalnız "binokl siyasəti" həyata keçirən bu gərəksiz missiyasını dövriyyəyə buraxıb, təxribatlar törətməklə, reallıqdan uzaq yalan açıqlamalar verməklə sülh prosesinin reallaşmasına əngəllər yaratmağa çalışıb. Bu isə Qərbin konstruktivlikdən çox uzaq olduğunu göstərən başlıca amillərdən biridir.

Bütün bunlarla kifayətlənməyən Qərb ölkələri başda Fransa olmaqla Ermənistanı daim silahlandırır, müxtəlif adlar altında hərbi yardımlar edirlər. Rəsmi İrəvan da verilən bu silahları həvəslə alır, İkinci Qarabağ müharibəsində şanlı Azərbaycan Ordusunun darmadağın etdiyi silahlı qüvvələrini bərpa etməyə çalışır. Avropadan göndərilənlərlə kifayətlənməyən İrəvan Hindistandan da silahlar alır. Ermənistan ikiüzlü siyasət yürüdərək bir tərəfdən sülh sazişi imzalamağa hazır olduğunu nümayiş etdirir, digər tərəfdən müharibəyə hazırlaşır. Rəsmi İrəvan bu addımı ilə sülhə yox, revanşizmə üstünlük verdiyini göstərir.

Avropa İttifaqı yalnız indi deyil, əvvəlki dövrlərdə də müxtəlif yollarla ölkəmizdə vəziyyəti gərginləşdirməyə cəhdlər göstərib. Qərb mediasında tez-tez yalanlarla dolu olan anti-Azərbaycan təbliğatı təşkil olunub. Artıq bu gün Azərbaycan maliyyə sisteminə tam nəzarət edir, ölkəmizə qarşı çirkin niyyət güdən xarici qüvvələrin əl-ayağı yığışdırılıb. Yerli QHT-lərə, əslində, müxalifətin qollarına verilən bütün qrant adlanan vəsaitlər indi qeydiyyatdan keçməlidir. Bütün bunlarla barışmaq istəməyən Qərb təşkilatlarının "yaradıcı" fəaliyyəti və müxtəlif kuryerlər vasitəsilə Gürcüstandan Azərbaycana pul daşınmasını təşkil edir. Bütün bunlar ifşa olunduqdan sonra isə Qərb mediasında ölkəmiz əleyhinə yalanlar, uydurmalar yer alır. Qərbin məqsədi Ermənistan vasitəsilə Cənubi Qafqazda gizli məqsədlərinə çatmaqdır.

Azərbaycan daim sülhün və sabitliyin tərəfdarıdır. Hansısa mübahisəyə və münaqişəyə səbəb ola biləcək məsələlərin danışıqlar yolu ilə həll olunmasına üstünlük verir. Azərbaycan müharibə başa çatandan sonra dərhal Ermənistanı sülhə, əmin-amanlığa dəvət edib. Amma Fransanın və başqa Qərb ölkələrinin diktəsilə oturub-duran rəsmi İrəvan sülh sazişi imzalamağa tələsmir. Havadarlarına arxalanaraq danışıqlar prosesini uzatmağa çalışır. Ümid edir ki, əgər gələcəkdə hər hansı bir müharibə olarsa, Fransa və başqa Qərb ölkələri onun yanında olacaq. Amma Ermənistan ciddi yanılır.

Aprelin 9-da ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda Azərbaycan Prezidenti İlham Əliyev iştirakçıların suallarına cavab verərkən bu vacib mövzuya da toxunaraq demişdir ki, Ermənistan və onun arxasında duran bəzi xarici qüvvələr onlara düzgün məsləhət vermirlər: "Əslində, 2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atdı və tarixdən hamımız bilirik ki, bir ölkə kapitulyasiya edəndə onun başına nə gəlir. Lakin bu, baş vermədi. Beləliklə, Ermənistan sanki Azərbaycan xalqının 30 illik işğal iztirabı olmamış, 44 günlük müharibə olmamış kimi davranmağa davam etdi və öz dırnaqarası dostlarından pis məsləhətlər aldı. Yeri gəlmişkən, bu proses hələ də davam edir. Baxmayaraq, biz dəfələrlə onlara xəbərdarlıq etmişik ki, onlar istər köhnə, istərsə də yeni dostları hesab etdikləri dairələrə bel bağlamamalıdırlar. Çünki onlar burada bizimlə üz-üzə qalacaqlar. Bizim maraqlarımızı, beynəlxalq arenada olan siyasi maraqlarımızı müdafiə etmək üçün kifayət qədər siyasi iradəmiz var və bizi siyasətimizdən döndərəcək hər hansı bir beynəlxalq təzyiqə məruz qoymaq mümkün deyil".

Dövlətimizin başçısı Minsk qrupunun hələ də ləğv edilməməsindən və Avropa İttifaqının tutduğu mövqedən əl çəkmədiyindən bəhs edərək demişdir ki, bizim hamımızın bildiyi kimi, Minsk qrupu Qarabağ münaqişəsi ilə bağlı olan məsələləri həll etmək üçün yaradılmışdır. Əgər Ermənistan hökuməti bəyan etdikləri kimi münaqişənin bitdiyini və Qarabağın Azərbaycanın bir hissəsi olduğunu hesab edirsə, Minsk qrupunun hüquqi olaraq buraxılmaması üçün heç bir səbəb yoxdur. De-fakto olaraq qrup fəaliyyət göstərmir, lakin rəsmi olaraq Minsk qrupunun buraxılması üçün Azərbaycanla birlikdə birgə müraciəti imzalamaqdan imtina etmək onların öz vaxtını gözləməsinə işarə edir. Ola bilsin onlar bəzi dəyişiklikləri, onlara üstünlüklər verən müəyyən beynəlxalq vəziyyəti gözləyirlər. Onlar Amerikada seçkilərdən sonra demokratların administrasiyada qalacaqlarına çox güvənirdilər. Lakin Prezident Trampın qələbəsi onları çox məyus etdi. Biz hamımız bunu bilirik. Buna baxmayaraq, Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən. Beləliklə, sülh sazişi imzalanana və Ermənistan konstitusiyasında hələ də mövcud olan Azərbaycana qarşı bütün ərazi iddialarından imtina edənə və Azərbaycanla münasibətlərin normallaşması üçün səmimi davranış sərgiləyənə qədər haylar təxribatlarını davam etdirəcəklər. "Burada sonuncu məqam odur ki, 2020-ci ildən bəri artıq beş il ötüb, biz hələ də Azərbaycanın Ermənistana qarşı yeni təcavüz planlaşdırdığına dair tamamilə əsassız olan mülahizə və ittihamlarla üzləşirik. Beləliklə, artıq beş il ötüb, lakin hələ də əsasən Fransa hökuməti və Avropa İttifaqında onların siyasətinə əməl edənlər və Blinken vəzifədə olarkən Dövlət Departamenti tərəfindən yaradılmış qara propaqanda davam edir".

Ermənistan və onu himayə edən Avropa İttifaqı sülh sazişinin imzalanmasını yubadaraq vaxt qazanmağa, hansısa bir bəhanə ilə regionda yeni süni münaqişə ocağı yaratmağa çalışırlar. Görünən odur ki, Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının fəaliyyəti sülhə zərbə vurmağa, Cənubi Qafqazda sabitliyi pozmağa hesablanıb. Bu missiya Azərbaycan əleyhinə iş aparır, kəşfiyyat məlumatları toplayır. Ermənistan da bu şəraitdən istifadə edərək sülh danışıqları pərdəsi altında silahlı qüvvələrini gücləndirməyə çalışır. Bu prosesdə Avropa İttifaqının canfəşanlıq etməsi həm beynəlxalq, həm də yerli müşahidəçilərin diqqətindən yayınmır. Bütün bunlar isə Avropa İttifaqının iç üzünü açıb dünyaya göstərir, nüfuzunu aşağı salır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Makrona daha bir zərbə İsraildən gəldi

### "Fransanın Qərbi Afrikada yürütdüyü neoimperializm siyasətinin qarşısı alınmalıdır"

**Fransalı siyasətçi, "Vətənpərvərlər" Partiyasının lideri Florian Filippo ölkə prezidenti Emmanuel Makronun Rusiyanı atəşi dayandırmağa məcbur etmək zərurəti ilə bağlı sözlərindən təəccüblənib. O, bu barədə "X" sosial şəbəkəsində yazıb.**



Fransa prezidenti öz postunda, Ukrayna müharibəsində atəşkəs əldə etmək üçün Rusiyaya qarşı qəti addımlar atmağa çağırıb. Eyni zamanda Makronun sözlərinə görə, Fransa müttəfiqləri ilə birlikdə bunun üzərində yorulmadan işləyir.

Buna cavabında Filippo hiddətlə yazır: "Bu nə deməkdir?! "Ukraynaya daha çox silah, pul və hətta fransız əsgərləri göndərməklə atəşkəs "tətbiq edin?"

Siyasətçi həmçinin Fransa liderini öz hərəkətləri ilə barışıqda deyil, üçüncü dünya müharibəsini yaxınlaşdırmaqda ittiham edib.

Daha əvvəl Parisdəki Siyasi Araşdırmalar üzrə "Sciences Po" Mərkəzinin analitiki Brüno Kotre demişdi ki, hazırda hər dörd fransızdan yalnız biri Makrona güvənir. Ekspertin fikrincə, seçicilər Fransa liderinin Ukrayna münaqişəsi ilə bağlı qəti addımlar ata biləcəyinə inanmırlar.

Bu arada, Makron daha bir zərbəni İsraildən alıb. Belə ki, İsrailin Baş nazirinin oğlu Yair Netanyahu yazılarında Fransa ərazilərinin müstəqilliyinə çağırıb və Makronun siyasətini Fransanın nasistlərlə tarixi əməkdaşlığı ilə müqayisə edib: "Yeni Kaledoniyanın müstəqilliyinə - HƏ! Fransız Polineziyasının müstəqilliyinə - HƏ! Korsikanın müstəqilliyinə - HƏ! Basklar ölkəsinin müstəqilliyinə - HƏ! Fransız Qvineyasının müstəqilliyinə - HƏ!"

Fransanın Fələstin dövlətini tanımaq planlarına cavab verən Y. Netanyahu Makrona sərt şəkildə "Rədd ol!" deyib.

O həmçinin vurğulayıb ki, Fransanın Qərbi Afrikada yürütdüyü neoimperializm siyasətinin qarşısı alınmalıdır.

İsrailin Baş naziri Benyamin Netanyahu da "X"də buna münasibət bildirib: "Mən ölkənin gələcəyindən narahatlıq keçirən və əsl sionist olan oğlum Yairi sevirəm. Hər bir vətəndaş kimi onun da öz şəxsi fikrini söyləmək hüququ var, baxmayaraq ki, prezident Makronun Fələstin dövlətinin yaradılmasına çağıran tvitlərinə cavab tərzi mənim üçün qəbuledilməzdir".

Baş nazir deyib ki, Makron dəhşətli səhvə yol verir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Dəyərə çevrilmiş ömür

**Vəfatından 40 il ötən görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın nurlu xatirəsi qədirbilən xalqımız tərəfindən hörmətlə anılır, yad edilir.**

**Yaddaşlarda yaşamaq əbədi ömür qazanmaqdır. Yalnız belə işıqlı simaların adları bəşər tarixinə qızıl hərflərlə yazılır. İmzası, dəst-xəti ilə seçilən şəxsiyyətlərdən olan akademik Zərifə Əziz qızı Əliyevanın da adı əbədiyyət ünvanında həmişəlik qərar tutub. O, həyatın sınaqlarından, elmin çətin yollarından keçərək şərəfli bir ömür yaşamağın nümunəsinə çevrilib.**

**Zərifə xanım Əliyeva mənsub olduğu xalqı işıqlı ideallara qovuşdurmaq yolunda apardığı qətiyyətli mübarizədə böyük dövlət xadimi Heydər Əliyevin ən etibarlı silahdaşı olmuşdur. Güclü, müstəqil Azərbaycan amalı uğrunda apardığı haqq mücadiləsində Ulu Öndərin iki əsas mənəvi dayağı vardı. Onlardan biri daim bu böyük dövlət adamının qüdrətinə güvənən, taleyini onun müdrikliyinə etibar edən Azərbaycan xalqı, digəri isə bütün həyatını ona həsr etmiş, vəfalı ömür-gün yoldaşı Zərifə xanım Əliyeva idi.**



Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir. Görkəmli alim milyonların qəlbində daim dərin hörmət və ehtiramla, rəğbətlə xatırlanır. O, böyük bir mənəvi dünyanın adamı idi. Aydın və nurlu bir şəxsiyyət idi. Alicənablığına, səmimiyyətinə, xeyirxahlığına, yüksək intellektinə, diqqət və qayğısına görə hamının hörmət və məhəbbətini qazanmış bu insan, ilk növbədə, həm də böyük bir ziyalı idi. Sözün həqiqi mənasında, bu böyük ziyalının insanlara bəxş etdiyi nur onun elminin dərinliyindən, mənəvi paklığından, intellektinin kamilliyindən, şəxsiyyət ucalığından və bütövlüyündən qidalanmışdır.

Zərifə xanım elə bir ailədə dünyaya gəlmişdi ki, orada xeyirxahlıq, aliсənablıq, insansevərlik kimi xüsusiyyətlər nəsildən-nəslə genlərlə keçmişdi. Dövrünün böyük şəxsiyyəti olmuş Əziz Əliyev övladlarına mənəvi təmizlik, paklıq aşılamışdı. Bu xüsusiyyətlər Zərifə xanımın əlindən həmişə tuturdu. O, təmkinli, dözümlü, düşüncəli idi. İşıq isə onun həyatının mənası idi.

## Böyük yol və ilk uğurlar

Zərifə xanım orta məktəb illərindən tibb sahəsinə maraq göstərərək insanların gözünə nur vermək kimi müqəddəs bir yol seçmişdi. Oftalmologiya ixtisasına bağlılığı həm də onun daxilindən, mənəvi dünyasından, insanlara həssas münasibətindən irəli gəlirdi. Sonralar peşəsində qazandığı uğurlar da məhz bu keyfiyyətləri ilə bağlı oldu. Xəstələrini doğmalarından ayırmadı, insanları zülmətdən qurtarmaq, onların gözlərini nura boyamaq üçün əlindən gələni əsirgəmədi. İstedad, zəhmət və ağılla qazanılan uğurlu illər getdikcə zənginləşir və onlardan bütün cəmiyyətə pay düşürdü.

Zərifə xanım orta məktəbi bitirəndə 1942-ci il idi. Cəbhədə sovet ordusu bir-birinin ardınca uğursuzluqlara düçar olurdu. Atası da daim əsgər şinelində idi, dövlət onu hara yollayırdısa, gedirdi. Onda İkinci Dünya müharibəsi bir il idi ki, başlamışdı. Bakıda bir çox binalar hospitala çevrilmişdi. Bu hospitallar cəbhədə ağır yaralanmış döyüşçülərlə dolu idi. Tibbi kadrlar isə çatışmırdı. Zərifə xanım dərslərdən sonra rəfiqələri ilə evlərinin yaxınlığındakı hospitallara gedər, həkimlərə, digər tibb işçilərinə bacardığı dəstəyi göstərər, yaralıların doğmalarına məktub yazmalarına kömək edər, onlara mənəvi dayaq olmağa çalışardı. Nəhayət, ağır və mürəkkəb bir dövrdə orta məktəbi uğurla başa vurdu. 1942-ci ilin yayında ali məktəbə imtahanları uğurla verib Azərbaycan Tibb İnstitutunun Müalicə fakültəsinə daxil oldu.

Müharibə ağır bir sınaq idi - acıları, amansız qayda və tələbləri ilə. Bunların hamısına dözmək gərəkdi, stalinizmin total nəzarətinə də həmçinin. Belə bir şəraitdə büdrəmək, nədənsə gileylənmək həm təhlükəli, həm də qadağan idi.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirən Zərifə Əliyeva daha artıq praktik biliklərə yiyələnmək üçün Moskvaya - Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna yollanır. Bu gedişin daha bir məqsədi var idi - Azərbaycanı bürümüş traxoma epidemiyası! Ölkəyə məhz bu yöndə ixtisaslı həkimlər çox lazım idi. Zərifə xanım isə Müalicə fakültəsini bitirmişdi. Göz xəstəlikləri üzrə ixtisaslaşmaq üçün mütləq əlavə təhsil zəruri idi. Həm də göz viruslarının regional fərdiliyi də vardı və infeksiya ilə mübarizə həm də bu fərdiliyi fundamental şəkildə öyrənməyi tələb edirdi. Zərifə xanım məhz bunu qarşıya məqsəd qoydu.

Moskva dövrü gənc mütəxəssisin dünyagörüşündə yeni bir aləmə çevrildi. Gənc həkim o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Bir də göz cərrahiyyəsinin sürətli inkişafı nəzərindən yayınmadı. Müharibə tibbin cərrahiyyə sahəsinə böyük təkan vermişdi, ağlasığmaz əməliyyatlar həyata keçirilirdi.

Zərifə xanım Moskvada iki il yaşadı, elmi işçi kimi püxtələşdi.

## İşıq onun həyatının mənası idi

1949-cu ildə yüksəkixtisaslı göz həkimi kimi Bakıya qayıtdı. Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başladı. 1950-ci ildə aspiranturaya daxil olub, praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlarını da davam etdirdi. Apardığı tədqiqatlar nəticəsində 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. 1960-cı ildən 1967-ci ilədək Zərifə xanım Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışdı.

Traxoma XX əsrin qırxıncı illərinin sonunda Azərbaycanda və dünyanın əksər məkanlarında sosial bəlaya çevrilmişdi. Gözü zədələyən bu xəstəlik ağır nəticələrə, hətta tam korluğa gətirib çıxarırdı. Ona görə də bu infeksiya və onun ziyanlı nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublika səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım böyük bir fəallıq və məsuliyyətlə traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkili, keçirilməsi proseslərinə qoşuldu. Antibiotiklərin imkanlarından səmərəli istifadə yollarını yorulmadan tədqiq etdi. Nəticələr də uğurlu oldu. Günü bu günəcən Azərbaycanda traxomanın ləğvi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır.

1968-ci ildən etibarən isə o, professional oftalmologiyanın digər aktual məsələlərini tədqiq etməyə başladı. Böyük alim eyni zamanda praktik həkimlik işindən də uzaqlaşmadı: çoxlu cərrahiyyə əməliyyatları həyata keçirir, xəstələri ilə məşğul olur, onların müalicə tarixçəsini izləyirdi. Həm kurslara gələn həkimlərə oftalmologiyanın ən yeni nailiyyətləri, müalicə və cərrahiyyə üsulları barədə mühazirələr oxuyur, həm də cavan kadrlarla, tələbələri ilə iş aparırdı. Ölkə üçün yeni, peşəkar oftalmoloqlar nəslinin yetişməsinə böyük zəhmət sərf edirdi. Şəxsi nüfuzu hesabına əksəri sadə, zəhmətkeş ailədən çıxmış istedadlı, köməyə ehtiyac duyan gənclərə dəstək olurdu. Onların tanınmış elmi-tədqiqat institutlarının aspirantura və doktoranturalarına qəbuluna kömək göstərirdi.

Alimin şəxsiyyətinə yaxından bələd olanlar, taleyinə Zərifə xanımla birgə çalışmaq, ondan dərs almaq qisməti yazılanlar bu insanı geniş maraq dairəsinə malik əsl elm fədaisi, sadə olduğu qədər də nəcib bir ziyalı kimi səciyyələndirirlər. Zərifə xanım üçün elmdə nəticələrin sonu yox idi, əldə edilmiş hər hansı elmi titul, ad onun üçün daha çox hansısa mərhələnin yekunu kimi əhəmiyyət daşıyırdı. Bu fədakar alimi daha çox elmi-tədqiqat prosesinin özü maraqlandırırdı, tədqiqatlar davam etdikcə, onu oftalmologiya elmi qarşısında məşğul olduğu istiqamətdən açılan yeni üfüqlər cəlb edirdi. Zərifə xanım yaxşı bilirdi ki, elm böyük bir dəryadır. Bəşəriyyətin elmdə vaqif olduğu sirlər bu dəryada bir damla kimidir. Ona görə elmdə bir gün də dayanmaq, hansısa yüksək titulları qazandıqdan, müvafiq adlara yiyələndikdən sonra müasir dildə desək, özünü komfort zonasında hiss etmək olmaz. Əsl alim hər gün düşünməli, axtarmalı, tapıntılarını qələmə alaraq öz mühitində bölüşməlidir. Zərifə xanım Əliyeva özü məhz belə alimlərdən idi və başqalarına da bunu təlqin edirdi.

Bu illərdə o daha mühüm bir problemlə - peşə ilə bağlı göz xəstəlikləri ilə məşğul olmağa başlamışdı. Həyatın tələbi olan bu problemin həlli minlərlə insanların görmə qabiliyyətini qorumağa yönəlmişdi. Azərbaycanda sənayenin sürətli inkişafı, istehsal sahələrinin genişlənməsi, xüsusən, kimya sənayesi bu sahələrlə bağlı göz xəstəliklərini ciddi problemə çevirmişdi. Zərifə xanımın 1968-ci ildən sonrakı elmi fəaliyyətini peşə ilə bağlı göz xəstəliklərinə həsr etməsi də bununla əlaqədar idi. Sumqayıtda insanlar bütün ömürləri boyu kimyəvi maddələr istehsalı sahəsində çalışırdılar. Bu isə müəyyən xəstəliklərin yaranmasına gətirib çıxarırdı və göz xəstəlikləri onların bəlkə də ən ağırı idi.

Görkəmli alim bunu yaxşı dərk edir və zəhmət adamlarına kömək edən dərmanlar və müalicə üsulları yaratmağa çalışırdı. Bu məqsədlə Bakı və Sumqayıtın bəzi zavodlarında eksperimentlər keçirirdi. Təcrübi yol kimyəvi maddələrin və zəhərlərin insanın görmə orqanına təsirini əsaslandırmaq üçün zəruri idi. Bu işlərlə bağlı tədqiqatçı tez-tez kimya müəssisələrində olur, xəstələri ilə görüşür, patoloji halları izləyirdi.

Zərifə Əliyeva çoxillik araşdırmalarını peşə göz xəstəliklərinə həsr olunmuş doktorluq dissertasiyasında ümumiləşdirdi. Müdafiəsi 1977-ci ildə dünya oftalmologiyasının əsas mərkəzlərindən sayılan Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda oldu. Onun doktorluq işi məşhur alim və həkimlərin ən yüksək qiymətlərini aldı. Elə həmin il Zərifə xanıma tibb elmləri doktoru elmi adı verildi, Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru, bir ildən sonra isə kafedranın rəhbəri oldu.

## Alimin həyatında əlamətdar hadisə

1979-cu ildə SSRİ miqyasında görkəmli oftalmoloq kimi tanınan alimin həyatında bir-birinin ardınca yeni əlamətdar hadisələr baş verdi. Zərifə xanımın təşəbbüsü ilə Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunda Azərbaycanda ilk dəfə peşə göz xəstəliklərini öyrənən laboratoriya açıldı və o, həmin laboratoriyanın rəhbəri təyin edildi.

Əslində, bu, dünyaşöhrətli alimin elmi məktəbi idi. Bu dövrdə onun şin və yod istehsalında göz patologiyasına həsr olunmuş iki monoqrafiyası çapdan çıxdı və yüksək qiymətlər aldı. Alim virus mənşəli göz xəstəlikləri barədə də dəyərli əsərlər yazdı. Həmçinin göz cərrahiyyəsi, həkim etikası, gənc kadrların hazırlığı ilə bağlı problemlər onu ömrü boyu narahat edir, bu mövzularda yeni əsərlərin yaradılması ilə nəticələnirdi. Professor Zərifə xanım Əliyevanın elmi-tədqiqat işləri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

Görkəmli alimin elmi-tədqiqat işlərinin bir qismi görmə orqanının bədxassəli şişlərinin, qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini əhatə edir. Onun "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı monoqrafiyaları və digər əsərləri göz xəstəliklərinin yaş xüsusiyyətlərinə, "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyə üsulları ilə müalicəsi" və digər monoqrafiyaları isə daktriologiyaya həsr edilmişdir. Zərifə xanım Əliyevanın qələmə aldığı fundamental "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" və sair kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə, professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. O, belə bir yüksək mükafata layiq görülən ilk azərbaycanlı qadın idi.

1983-cü ildə isə böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçildi. Görkəmli alim oftalmologiyanın müxtəlif istiqamətlərinə aid 150-dən çox elmi məqalə, 14 monoqrafiya, 12 səmərələşdirici təklifin müəllifi kimi dünya tibb elmində silinməz izlər qoydu. Bir alim kimi çox böyük zirvələri fəth etməyi bacaran Zərifə Əliyevanın əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını qoruyub saxlamaqla, oftalmoloqların əsas istinad mənbələrindəndir.

"Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı sərəncamında da qeyd olunduğu kimi, alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası isə məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır.

## Xəstə həkimə inanmalıdır

Zərifə Əliyevanın bir həkim kimi fəaliyyətində ali insani keyfiyyətlər hər zaman özünü qabarıq büruzə verib. O, böyük bir mənəvi dünyanın adamıdır. "Yüksək əqidə" əsərindən də aydın olur ki, o, müraciət edən pasiyentlərinə sadəcə bir həkim kimi yanaşmayıb. Zərifə xanım onlara həm də dərdlərinə şərik çıxan insan kimi yanaşıb və xəstəliklə üzləşmiş şəxsləri müalicə etdikdə özünü dünyanın xoşbəxti sanıb. Pasiyentlərə yardımını əsirgəməyən, onları ümidsizliyə qapılmağa qoymayan Zərifə Əliyeva özünün yüksək mənəviyyatından irəli gələrək həmin insanların fiziki sağlamlıqlarının keşiyində dayanıb, böyük ürək sahibi kimi onlara dayaq durardu.

Zərifə xanım bunu həm peşə, həm də insanlıq vəzifəsi hesab edirdi. Əsərində Zərifə Əliyeva bu barədə yazır: "Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o soruşur: Ağ xalat geyinməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, pasiyentin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır".

Sədaqət, səmimiyyət, kübarlıq əksər böyük insanlar kimi, Zərifə xanım Əliyeva şəxsiyyətinin də zinəti idi. O, malik olduğu bütün yüksək elmi titullara, statuslara rəğmən, insanlara xoş münasibətini hər zaman qoruyurdu. Bu mənada Zərifə xanım onu tanıyanlar üçün xeyirxahlıq mücəssəməsi idi. Atası Əziz Əliyevin ocağında, doğma valideynlərindən, eləcə də tez-tez bu ailədə qonaq olan Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Səməd Vurğun, Mirəsədulla Mirqasımov, Qara Qarayev, Bülbül və başqa görkəmli şəxsiyyətlərimizdən əxz etdiyi dəyərlər Zərifə xanımı kamil bir şəxsiyyət kimi formalaşdırmışdı. Kamilliyə can atmaq düşünən insan üçün ən vacib xüsusiyyətlərdən biridir. Düşüncə kamilliyi isə bir qayda olaraq, əxlaqla dünyagörüşünün dialektik vəhdətindən yaranır. Təbabətdə də əxlaqla peşə dünyagörüşünün vəhdəti yüksək peşəkarlığın başlıca təminatçısıdır. Zərifə xanımın yüksək intellektual mövqeyini şərtləndirən ən əsas cəhətlərdən biri də elə məhz ondan ibarət idi ki, bu nəcib insan daim tibbi praktikada əxlaqi dəyərlərə böyük üstünlük verir, bu dəyəri gənc yetirmələrinə də ötürürdü. Zərifə xanım özü həkim adının ucalığına, içdiyi Hippokrat andına bütün ömrü boyu sadiq qalmışdı və başqalarından da gözləntisi bu idi.

Tibb elmləri doktoru, tibb xidməti polkovniki V.İ.Vaynştеyn Zərifə Əliyevanı ehtiramla xatırlayıb deyirdi ki, onun xarakteri heyrətamiz idi: "Onu yüksək vətəndaşlıq və peşəkar prinsipiallıq səciyyələndirirdi. İstər söhbətlərində, istərsə də məqalələrində - həmişə həkimlik peşəsinin təmizliyindən danışır, dönə-dönə bildirirdi ki, elmi-texniki tərəqqi dövründə həkimlərin mənəvi-əxlaqi keyfiyyətləri nəinki aşağı düşməməli, əksinə, daha da yüksəlməlidir".

Professor A.N.Dobromıslov isə Zərifə Əliyevanı zəngin həkimlik və müdrik həyat təcrübəsinə əsaslanan tövsiyələrini yüksək qiymətləndirirdi. Bu cəhətdən o, həkimin sözlə müalicəsini xüsusi qeyd edirdi. Professorun fikri Zərifə xanımın səmimilik, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq kimi keyfiyyətlərin səhiyyə əxlaqının əsasını təşkil etdiyi fikrinə tamamilə uyğundur. Dobromıslov bir dəfə Zərifə xanımın xəstələrinin necə qəbul etdiyinin şahidi olduğunu xatırlayıb deyirdi ki, Z.Əliyevanın müayinəsindən və müalicə təyin etməsindən sonra xəstələr kabineti təbəssümlə, ümidlə, minnətdarlıqla tərk edirdilər: "Mənəvi borc və məsuliyyət duyğuları onu bircə an da tərk etmirdi. Ətrafdakıların hörmət və ehtiramını qazansa da, həmişə özünü sadə və təvazökar aparardı. Başqalarının vaxtına qiymət verməyi də bacarardı, ünsiyyətdə olduğu insanlarda yalnız yaxşı keyfiyyətləri görməyi də..."

## Sevgi dolu yaddaş

Zərifə xanım Əliyeva ailə dəyərlərinə sadiq, vəfalı həyat yoldaşı və qayğıkeş ana kimi də cəmiyyətə nümunə sayılırdı. Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın ailə modeli Azərbaycan cəmiyyətində mənəvi dəyərlərin və ailə institutunun daha da güclənməsinə çox təsir etmişdi. O, işinin çoxluğuna, elmi-pedaqoji, praktik həkimlik fəaliyyəti ilə bağlı qayğılarının ağırlığına baxmayaraq, işlə ailə arasında balansı uğurla təmin etməyi bacarır, ailə ocağında gələcəyin görkəmli övladlarını tərbiyələndirir, xarakterindəki ən gözəl, nəcib xüsusiyyətləri onlara ötürürdü.

Ulu Öndər Heydər Əliyevin onun haqqında çəkilmiş sənədli filmlərdə, müsahibələrində, insanlar qarşısındakı səmimi çıxışlarında ömür-gün yoldaşı Zərifə xanım Əliyeva haqqında danışdığı xatirələr bu gün də Azərbaycan gəncləri üçün əsl mənəvi paklıq nümunəsidir. Zərifə xanımın məzarüstü abidəsinin açılışı günü Ümummilli Liderin heykəlin önündə duyğulandığı tarixi an əsl sevgiyə sədaqət hissinin mənəvi ifadəsi kimi hər dəfə xatırlandıqca insan qəlbini riqqətə gətirir.

Səmimilik, aliсənablıq, qayğıkeşlik qədər birinci növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işi arasında vəhdət, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına sönməz məhəbbət Zərifə xanım Əliyevanın şəxsiyyətini səciyyələndirən ən əsas xüsusiyyətlər kimi nəzərə çarpırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Zərifə xanımı işıqlı xatirələrlə yada salır: "Əlbəttə ki, onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Eyni zamanda Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda yüksək mədəniyyət, aliсənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onlara təcəssüm etdirirdi.

...Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi".

Həqiqətən, alim-həkim ömrünün ən gözəl, müdrik, səriştəli zamanlarında olan Zərifə xanımın böyük arzu və ümidləri, yeni elmi layihələri vardı. Əfsus ki, tale aman vermədi. Çərəsiz xəstəlik 1985-ci ildə onun ömrünə son qoydu. Artıq 40-cı ildir ki, Zərifə xanım Əliyeva aramızda yoxdur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu itkinin acısını müsahibələrinin birində belə dilə gətirmişdi: "Təəssüf ki, mənim Zərifə xanımla ünsiyyətim qısa oldu. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə Zərifə Əliyeva həyatdan getdi. Bu istedadlı və gözəl qadınla bağlı xatirələr hələ də mənim qəlbimdə yaşayır".

Zərifə xanımın xatirəsi cənab İlham Əliyevin Azərbaycan üçün gördüyü tarixi işlərdə, nəcib əməllərində, Mehriban xanımın Vətənə verdiyi töhfələrdə, yaratdığı xeyirxahlıq, humanizm, mərhəmət, insana sevgi nümunələrində də yaşayır. Bütün ömrünü insanlara nur bəxş etmək üçün yaşamış Zərifə xanım Əliyeva insanlar üçün işıq və sevgi dolu bir yaddaşdır. O, yaddaşımızda elmlə təfəkkürün, həkimlik və pedaqoqluğun, rəhmdillik və təvazökarlığın, aliсənablıq və insansevərliyin ən uca zirvəsindədir.

* * *

Akademik Zərifə xanım Əliyeva kimi şəxsiyyətlər böyük dəyərlərin simvollarıdırlar. Onları xatırlamaq həm də bu dəyərləri yada salmaq, onların göstərdiyi istiqamətə yönəlməkdir. Dəyərlər də insanlar kimidir, xatırlandıqca yaşayırlar. Dünyaşöhrətli alim Zərifə Əliyeva da hər zaman yaddaşlarda yaşayacaq və bu işıqlı ömrün ətrafında bir araya gələn dəyərlərə əbədi ömür bəxş edəcək.

***Əhliman ƏMİRASLANOV,***
***SSRİ Dövlət Mükafatı laureatı,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik***





# Mədəniyyət





Şəxsiyyətlər, talelər

# Nəriman Nərimanov həqiqəti



**Nəriman Nərimanov bir ədib kimi Mirzə Fətəli Axundzadə məktəbinin ilk davamçılarından olmuş, realist ədəbiyyatımızın inkişafında, onun qabaqcıl ideyalarla zənginləşməsində mühüm rol oynamışdır. Cəmiyyəti inkişafdan saxlayan mürtəce adət-ənənələri, dini fanatizmi, istibdadı tənqid, inkişafı, tərəqqini, mədəni yüksəliş və azadlıq ideyalarının tərənnümü onun bədii əsərlərinin əsas qayəsini təşkil etmişdir.**

## Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, yazıçı və publisist, həkim Nəriman Nərimanovun anadan olmasından 155, vəfatından 100 il ötür

Görkəmli dövlət xadimi, ədib 1870-ci ildə Tiflis şəhərində anadan olmuşdur. Qardaşından, əmisindən yazıb-oxumağı öyrənmiş, Azərbaycan ədəbiyyatının müxtəlif nümunələri ilə tanış olmağa başlamışdır.

1882-ci ildə Nəriman Nərimanov Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuşdur. Azərbaycan, rus və Avropa ədəbiyyatı klassiklərini həvəslə öyrənmişdir. Ədəbiyyat sahəsində ilk qələm təcrübələri də bu illərə təsadüf etmişdir.

### İlklərin müəllifi

Seminariyanı başa vurduqdan sonra Nəriman Nərimanov Tiflis quberniyasının Qızılhacılı kəndinə müəllim təyin olunur. Bu kənddə keçən birillik müəllimlik fəaliyyəti ona kəndlilərin ağır həyat və məişəti ilə tanışlıq imkanı yaradır. O, bütün gücünü ortaya qoyaraq bu təbəqə arasında maarifi təbliğ etməyə, onları düzgün istiqamətlərə yönəltməyə çalışır. Hələ Qori Müəllimlər Seminariyasında yazmağa başladığı "Nadanlıq" dramını tamamlamaqda kənd həyatı ona zəngin material verir.

Qızılhacılı məktəbində bir il çalışdıqdan sonra Bakıya köçən N.Nərimanov burada özəl progimnaziyada, habelə realnı məktəbdə müəllim kimi fəaliyyətini davam etdirir. Bakıda yaşayıb çalışması ona o dövrdəki qaynar ictimai-siyasi mühitə daxil olmaq imkanı verir.

Nəriman Nərimanov qabaqcıl Azərbaycan ziyalılarının köməyi ilə 1894-cü ildə Bakıda ilk dəfə olaraq kütləvi xalq qiraətxanası açır. Qısa müddətdə həmin qiraətxana şəhər ziyalıları arasında çox böyük rəğbətlə qarşılanır. Şəhər sakinləri burada təkcə qəzet-jurnal, kitab oxumurdular. Nəriman Nərimanovun rəhbərliyi ilə tez-tez toplantılar təşkil olunur, yeni əsərlərin müzakirəsi aparılırdı. Bundan başqa, qiraətxanada yoxsul tələbələrə, şagirdlərə kömək məqsədilə xeyriyyə teatr tamaşaları da oynanılırdı. Bütün bunlarla yanaşı, Nəriman Nərimanov dərsliklər tərtib edir, bədii əsərlər və publisistik məqalələr yazırdı. Görkəmli ziyalının Azərbaycan dili qrammatikası, ruslar üçün Azərbaycan dili və azərbaycanlılar üçün rus dili dərslikləri məhz həmin dövrdə yaranmış, müəllimlərə, tələbələrə bu iki dili qarşılıqlı şəkildə öyrənməkdə çox böyük fayda vermişdi.

Azərbaycandilli əhalini mühüm siyasi hadisələrlə, ölkə daxilindəki vəziyyətlə tanış etmək üçün N.Nərimanov "Təzə xəbərlər" adlı qəzet, "Sovqat" və "Məktəb" adlı jurnalların nəşri barədə də məsələ qaldırmış, lakin hökumət idarələri tərəfindən bu xahişlər müxtəlif bəhanələrlə rədd edilmişdi.

### Yazıçılıqdan həkimliyə

Bu dövrdə Nəriman Nərimanov ədəbiyyat və incəsənət sahəsində yorulmadan çalışırdı. 1894-cü ildə o, "Nadanlıq" pyesini, 1895-ci ildə "Dilin bəlası, yaxud Şamdan bəy" komediyasını, 1896-cı ildə məşhur "Bahadır və Sona" romanının birinci hissəsini, 1899-cu ildə isə "Nadir şah" faciəsini nəşr etdirir, görkəmli rus yazıçısı N.V.Qoqolun məşhur "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə edir.

Nəriman Nərimanovun fəaliyyəti Azərbaycan teatr incəsənətinin keçdiyi yolla birbaşa bağlıdır. O, aktyor dəstələri ilə yaxından əlaqə saxlayaraq onların Bakıda verdikləri tamaşalara rəhbərlik edir, Azərbaycan qəzalarına da gedirdi.

Nəriman Nərimanov 1902-ci ildə Odessa Universitetinin Tibb fakültəsinə daxil olur. 1908-ci ildə universiteti bitirərək Bakıya gəlir və şəhər xəstəxanasında işə düzəlir. 1913-cü ildən Qara Şəhər xəstəxanasında həkimlik edir. Həkimlik fəaliyyəti ilə yanaşı, 1913-cü ildə "Pir", 1915-ci ildə "Bir kəndin sərgüzəşti" hekayələrini yazır, mətbuat səhifələrində ədəbi hadisələr, ayrı-ayrı tamaşalar haqqında məqalələri işıq üzü görür.

### Cəmiyyət və insan mənzərələri ilə zəngin dramaturgiya

Ədibin yaradıcılığında onun dram əsərləri xüsusi yer tutur. Bu əsərlər cəmiyyət və insan mənzərələri ilə zəngindir. 1894-cü ildə nəşr olunmuş "Nadanlıq" dramında XIX əsr kəndinin dəhşətli ictimai mənzərəsi əks olunur. Əsərdə kənd müəlliminin çəkdiyi ağır əzab və iztirablar təsvir edilir. Dramın müsbət qəhrəmanı Məhəmməd ağa müəllim hər işdə tərəqqiyə çalışır, kəndlilərə yol göstərir. Ona kömək edən gənc Ömər isə Məhəmməd ağanın silahdaşıdır. Savadlı, xeyirxah və fədakar olmasına baxmayaraq, hamı Ömərdən üz döndərir. Hətta qaçaq qardaşı Vəli də ona düşmən kəsilir. Ömər fanatiklərin əlində faciəli şəkildə həlak olarkən deyir: "…məni… nadanlıq…, avamlıq, biməriftlik güllələdi. Bunlar hamısı… Ah… adamı… heyvan edərmiş! Ah, nadanlıq…"

1895-ci ildə çapdan çıxmış "Dilin bəlası, yaxud Şamdan bəy" əsəri ədibin ilk və son komediyasıdır. Əsərdə o dövrdə özünü ziyalı adlandıran müəyyən ünsürlərin əxlaq pozğunluğu, pul, şöhrət ehtirası, mənəvi boşluğu, lovğalığı, satqınlığı və xəyanəti ifşa olunur. Ədib tamaşaçını "Nə tökərsən aşına, o da çıxar qaşığına" məsəli üzrə gedərək bədnam əməllərin mütləq bədnam bir aqibətə gətirib çıxaracağına inandırır. Əsərdə müsbət qəhrəmanlar əksəriyyət təşkil edir. Onlar hadisələrin gedişinə istiqamət verir və qələbə qazanırlar. Halbuki bu cəhət ənənəvi komediya üçün xarakterik deyil. Ədib ifşa yolu ilə belə bir nəticəyə gəlir ki, xoşbəxtliyə, səadətə mütərəqqi qüvvələrin birliyi, ittifaqı ilə çatmaq olar.

Nəriman Nərimanov dramaturgiyasının ən kamil və yetkin əsəri şübhəsiz ki, 1899-cu ildə çapdan çıxmış "Nadir şah" tarixi faciəsidir. Bu əsər Azərbaycan ədəbiyyatında tarixi dramın ilk nümunəsidir. Hadisələri müasir dövrün tələbləri baxımından mənalandırmaq, senzura şəraitində müəyyən mətləblərə tarixi don geyindirmək meyli Mirzə Fətəli Axundzadənin ədiblərə verdiyi məşhur məsləhətdir. Nəriman Nərimanovun məhz Nadir şah obrazına müraciət etməsi də təsadüfi deyildi. Nadir şahın tarix səhnəsində zühuru o dövrün mütləqiyyət qanunlarına zidd gəlirdi. Çünki Nadir şah hakim sülalədən çıxmamışdı, taxt-tacı varis qismində sələflərindən qəbul etməmişdi. O, xalq içindən gələn tarixi bir şəxsiyyət idi.

Ədib isə tarixi fakta, həqiqətə birtərəfli yanaşmamış, Nadir şah obrazına etinasız qalmamışdı. Onun qəhrəmanı taxt-tac sahibi olsa da, öz dövrünə görə mütərəqqi düşüncəli bir insan idi, rəhbərlik etdiyi dövlətdə islahatlar aparmaq üçün aydın planları vardı. O, tutduğu yüksək mövqeyin məsuliyyətini, əhəmiyyətini bilən, ölkə həyatını düşünən ayıq bir adam idi.

Bir çox cəhətlərinə görə "Nadir şah" faciəsini 1905-ci ilə qədər senzura tamaşaya qoymağa icazə verməmişdi. Çar məmurları əsərdə kənar bir adamın şah mərtəbəsinə gəlməsini "qanunsuz" və təhlükəli sayırdılar. Amma sonrakı illərdə əsər Zaqafqaziya və İran səhnələrində çox oynanılmış, Azərbaycan teatrının repertuarında da mühüm yerlərdən birini tutmuşdu.

### Bədii nəsr tariximizdə yeni mərhələ

Nəriman Nərimanovun bədii nəsri həm ədibin öz yaradıcılığında, həm də realist ədəbiyyatın inkişafı tarixində əhəmiyyətli yer tutur. Doğrudur, o, böyükhəcmli romanlar, povestlər yazmamışdır. Amma məsələ heç də sayda və həcmdə deyil, məhz bədii dəyərdə, məzmundadır. XX əsrin əvvəllərindəki Azərbaycan bədii nəsri əsasən kiçikhəcmli, dərinməzmunlu, ictimai yaraları cərrahiyyə üsulu ilə kəsib atmağa çağıran, oxucunu əyləndirməyə, məşğul etməyə yox, düşündürməyə, qayğı çəkməyə yönəldən tutarlı, təsirli əsərlərdən ibarət olmuşdur.

Bu yaradıcılıq yolu ilə irəliləyənlərdən biri də məhz Nəriman Nərimanov idi. Onun "Bahadır və Sona" (1896-1908) romanı, "Pir" (1913) povesti, "Bir kəndin sərgüzəşti" (1915) hekayəsi ədibin bizə məlum olan bədii nəsr nümunələridir. "Bahadır və Sona" Azərbaycan ədəbiyyatı tarixində ilk romandır. Qoyulmuş ideyaların cəsarətlə təbliği, bədii forma gözəlliyi, maraqlı, sadə və təbii hekayə üslubu, hadisələrin sürətli inkişafı, tam və bitkin süjet, aydın xarakterlər, sağlam lirika, dildə canlılıq romanın əsas bədii keyfiyyətlərindəndir.

"Pir" povesti Nəriman Nərimanovun dini mövhumata qarşı yazdığı maraqlı əsərlərindən biridir. Xurafatı təmsil edənlər mühitində insani hisslərin, qabaqcıl meyillərin necə müdhiş zərbələrə məruz qaldığını, necə ağır məngənədə sıxıldığını göstərən bu əsərdə müxtəlif zümrələrdən olan surətlərə rast gəlmək olar.

1915-ci ildə "Açıq söz" qəzetində ədibin "Bir kəndin sərgüzəşti" hekayəsi də təfriqə şəklində çap olunmuşdu. Hekayədə kənd yerlərində mənəvi-əxlaqi dəyərlərdən məhrum şəxslərin bədnam əməlləri ifşa olunur. Kəndin bir tərəfinə sahiblənmiş Əmi adlı obraz adamları ələ almaq üçün zahirən çox mülayim, rəhmli, xoşsifət görünür. Aclara guya əl tutur, əslində isə yoxsul kəndlilərə sələmlə pul verir. Ancaq borcun vədəsi çatanda, kəndlilərin ödəmək bacarığı olmayanda, yoxsulların torpağı əldən çıxır, Əminin dövləti artır. Hekayədə ədibin ikinci tənqid hədəfi tənbəllik və avamlıqdır. Əmi kimilərin toruna düşməmək üçün müstəqil yaşamaq, biliklərlə silahlanmaq, öz hüquqlarını tələb etməyi bacarmaq lazımdır.

İnsan və onun yaradıcı zəhməti, mənəvi qüdrəti Nəriman Nərimanovun əsərlərində həmişə yüksək tutulur. Şəxsiyyət azadlığı, insanın heysiyyət və şərəf ucalığı onun povest, roman və hekayələrində də, şəxsi həyatında da böyük ideal və zəruri tələb olmuşdur.

Nəriman Nərimanovun ədəbi irsində onun ədəbi-tənqidi məqalələri, publisistik əsərləri də mühüm yer tutur. O, usta bir dramaturq, mahir bir nasir olduğu kimi, alovlu, gözəl bir publisist idi. Doktorun mədəniyyət, maarif, tərbiyə, sənət, ədəbiyyat, dil, əlifba, iqtisadiyyat və siyasət məsələlərinə aid bir sıra maraqlı əsər və fikirləri var ki, vaxtilə ictimai-siyasi mühitdə çox böyük əks-səda doğurmuş və indi də öz əhəmiyyətini itirməmişdir.

Azərbaycanın bir çox görkəmli yazıçı və mütəfəkkirləri kimi Nərimanov da ədəbiyyat və incəsənətin böyük ictimai təsir vasitəsi olduğunu dönə-dönə qeyd etmiş və göstərmişdir ki, kütlələrin siyasi şüurunun düzgün formalaşmasında sənətin çox böyük əhəmiyyəti vardır.

### İdeologiyaların fövqündə olan irs

1925-ci il martın 19-da 54 yaşında Moskvada vəfat etmiş Nəriman Nərimanov haqqında bəzən birmənalı olmayan rəylər irəli sürülür. Bunun əsas səbəbi qatı marksist olmuş doktor Nərimanovun siyasi görüşləridir. Bununla belə, Nəriman Nərimanov kimi şəxsiyyətlərə bu günün tarixi reallıqlarından deyil, onların yaşadıqları zamanın gerçəkliklərindən çıxış edərək qiymət vermək lazımdır.

Doktor Nərimanov elə bir dövrün yetirməsi idi ki, onda bütün dünyada insanları əzən, təhdid edən problemlərin həlli üçün müxtəlif ideologiyaların, baxışların mübarizəsi gedirdi. Bu ideologiyaların hər birinə on milyonlarla insan tapınmışdı. Nəriman Nərimanov da milyonlarla həmfikri kimi dünyanın gələcəyini marksizmin qələbəsində görürdü. Amma sonrakı illərin tarixi gerçəklikləri marksizmə inanmış insanların, o cümlədən Nəriman Nərimanovun ümidlərini puça çıxardı. Yanıldığını ömrünün son illərində özü də hiss etdi.

Bizim üçün isə ən mühümü Nəriman Nərimanovun ictimai fikir tariximizdə yaratdığı mütərəqqi ilklər, ortaya qoyduğu zəngin irsdir. Bu irs aid olduğu xalqa, yurda büsbütün sevgidən ibarətdir və həmin sevgi bütün ideologiyaların da, siyasi baxışların da fövqündədir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

15 Aprel Beynəlxalq Mədəniyyət Günüdür



# Qədim tariximizin nişanələri

**Beynəlxalq Mədəniyyət Gününün təsis olunması "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" 1935-ci il aprelin 15-də Vaşinqtonda müqavilə imzalanması ilə bağlıdır. O vaxtdan dünyanın bir çox ölkəsində bu gün Beynəlxalq Mədəniyyət Günü kimi qeyd olunur.**

2008-ci ilin dekabrında isə Rusiya, İtaliya, İspaniya, Argentina, Meksika, Kuba, Latviya və Litvanın ictimai təşkilatlarının təşəbbüsü ilə 15 aprelin Dünya bayrağı altında Ümumdünya mədəniyyət günü kimi təsdiqi üçün Beynəlxalq hərəkat yaradılıb.

Hər il aprelin 15-də dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda Beynəlxalq Mədəniyyət Günü qeyd edilir. Qədim və zəngin mədəniyyətə malik olan ölkəmizdə bir-birindən maraqlı və əhəmiyyətli beynəlxalq səviyyəli mədəni tədbirlər həm bu günlə bağlı, həm də il boyu təşkil olunur.

Ölkəmizin bütün ərazilərində qədim dövrlərdən başlayaraq el sənətləri yaranıb, nəsildən-nəslə ötürülərək inkişaf etdirilib. Şamaxı, Gəncə, Gədəbəy, Naxçıvan, Mingəçevir, Qazax və ölkəmizin digər bölgələrində aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş nümunələr bunu sübut edir. Tədqiqatlar nəticəsində məlum olub ki, tapılan metaldan düzəldilmiş sənət əsərlərinin yaşı 5000 ilə yaxındır. Aşkar edilmiş maddi-mədəniyyət nümunələri əcdadlarımızın hələ eramızdan əvvəl II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və başqa zinət əşyaları hazırladıqlarını göstərir.

Mədəniyyəti qədim və zəngin olan Azərbaycan 1992-ci il iyunun 3-də UNESCO-ya üzv qəbul edilib, 1996-cı ildən isə əməkdaşlığa başlayıb. Ölkəmizin bir sıra mədəni irsi bu nüfuzlu beynəlxalq təşkilat tərəfindən qeydə alınıb.

Xatırladaq ki, Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qarabağ və Şərqi Zəngəzur əraziləri 1990-cı illərdə Ermənistanın işğalına məruz qalıb. Həmin ərazilərimizdə 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri mövcud olub. Eyni zamanda 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi işğal olunmuş ərazilərdə dağıdılıb. İşğalçı Ermənistan beynəlxalq konvensiyaları, xüsusilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasını və ona dair protokollarını, eləcə də UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasını pozub. Təcavüzkar ermənilər Azərbaycanın misilsiz mədəniyyət abidələrini amansızlıqla qarət ediblər.

2020-ci ildə İkinci Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək otuz ilə yaxın işğal altında qalan torpaqlarımızı azad edib.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda işğal nəticəsində böyük ziyan görmüş abidələrimizin, memarlıq irsimizin bərpası və qorunması istiqamətində olduqca vacib və əhəmiyyətli işlər görülür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Filarmoniyada görkəmli Azərbaycan bəstəkarlarının əsərləri səslənib

**M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli bəstəkarlar Soltan Hacıbəyovun anadan olmasının 105, İsmayıl Hacıbəyovun isə 75 illiyinə həsr edilmiş konsert keçirilib.**



Filarmoniyadan bildirilib ki, əvvəlcə musiqişünas Vəfa Abbasova dinləyicilərə hər iki bəstəkarın yaradıcılığı haqqında məlumat verib və onları konsertlə bağlı məlumatlandırıb.

Daha sonra bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri dinləyicilər qarşısında çıxış edib. Proqramda hər iki bəstəkarın əsərləri yer alıb.

## Azərbaycan Ankaradakı amerikan məktəbində beynəlxalq festivalda təmsil olunub

**Ankaradakı müxtəlif xalqların nümayəndələrinin təhsil aldığı amerikan məktəbində (Ankara Elementary and High school) keçirilmiş beynəlxalq mədəniyyət festivalında ölkəmizi Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi təmsil edib.**



Festivalda Türkiyə, ABŞ, Ukrayna, Qazaxıstan, Özbəkistan, Rumıniya, Gürcüstan, Moldova, Qırğızıstan, Koreya Respublikası, Tacikistan, Kanada, Hindistan və s. ölkələr öz milli mədəniyyətlərini və mətbəxlərinə dair stendlər təqdim ediblər. Festival çərçivəsində Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycan stendini qurub. Stenddə Azərbaycan dövlətçiliyi, tarixi, mədəniyyətinə dair nəşrlər, milli mədəniyyətimizə dair suvenirlər, xalça və kilimlər nümayiş etdirilib, milli mətbəximizin nümunələri təqdim olunub.

## "İRS" jurnalının Çin dilində növbəti nömrəsi nəşr olunub

**Azərbaycan mədəniyyətinin, incəsənətinin xaricdə təbliği ilə məşğul olan "İRS" jurnalının Çin dilində növbəti nömrəsi nəşr edilib.**




Nəşrdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyası haqqında geniş məqalə yer alıb. Çinli oxucular jurnaldakı yazılar vasitəsilə Azərbaycanın tolerantlıq ənənələri, tarixi-mədəni irsi, o cümlədən Novruz bayramı adətləri, memarlıq nümunələri, ölkəmizin turizm potensialı haqqında məlumat əldə edə biləcəklər.

# "Bakı-2025"də tarix yazılacaq

## Orxan MƏMMƏDOV: "Mundial dünya minifutbol tarixində özünəməxsus iz buraxacaq"

**Artıq Azərbaycan dünyada həm də beynəlxalq idman yarışlarının, dünya və Avropa çempionatlarının keçirildiyi unikal məkan statusuna da sahiblənib. Elə il yoxdur ki, ölkəmizdə hansısa beynəlxalq idman yarışı keçirilməsin.**



Hazırda isə ölkəmiz daha bir nüfuzlu yarışın - minifutbol üzrə dünya çempionatını qəbul etməyə hazırlaşır. Mayın 21-dən iyunun 1-dək Milli Gimnastika Arenasında keçiriləcək mundialda dünyanın ən güclü 32 komandası mübarizə aparacaq.

Son illərdə Azərbaycanda idmanın müxtəlif sahələrində uğurlu nəticələr əldə edilməkdədir. Bunlardan biri də yeni yüksəliş mərhələsinə qədəm qoyan minifutbolumuzdur. Ölkə rəhbərliyi tərəfindən idmana, o cümlədən futbola olan qayğı nəticəsində futbol ən kütləvi və ən çox sevilən idman növünə çevrilib. Bu prosesdə Azərbaycan Minifutbol Federasiyasının (AMF) təqdirəlayiq fəaliyyəti xüsusi vurğulanmalıdır.

Bu günlərdə Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov Dünya Minifutbol Federasiyasının rəsmi saytına açıqlamasında deyib ki, mundialın Azərbaycana həvalə olunması ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir.

Qurum rəhbəri ölkəmizdə minifutbolun hazırkı durumu, inkişafı haqqında danışıb. O həmçinin may ayında Bakıda keçiriləcək dünya çempionatına hazırlıqdan bəhs edərək, bu mötəbər yarışın yüksək səviyyədə təşkil olunacağını bildirib. "Dünya çempionatı azarkeşlərimiz üçün əsl bayram olacaq. İlk olaraq qeyd edim ki, Azərbaycan Minifutbol Federasiyası bu idman növünün ölkəmizdə inkişaf etməsi və populyarlaşması üçün ciddi işlər görür. Federasiyamız dünya və Avropa minifutbol federasiyalarının aktiv üzvü kimi bir çox tədbir və konfranslarda fəal iştirak edir, təcrübə mübadiləsi aparır. Yarandığı gündən etibarən federasiya milli komandamızın 3 Avropa çempionatı və bir dünya çempionatında iştirakını təmin edib. Bundan başqa, komandamız Avropa çempionu olduqdan sonra 2022-ci il iyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyev millimizin üzvlərini qəbul edib. Məhz ölkə rəhbərinin belə diqqətinin nəticəsidir ki, hazırda insanlar minifutbola ciddi maraq göstərirlər. Gündən-günə daha çox insan və hətta peşəkar futbolçu olmayanlar da minifutbola üz tuturlar.

Azərbaycan olduqca böyük, beynəlxalqmiqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara - bir sözlə, nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi edib. Belə böyükmiqyaslı tədbirlərin keçirilməsi üçün etimadın göstərilməsi heç də təsadüfi deyil. Bu, əlbəttə, Azərbaycanın qazandığı uğurların, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında əldə etdiyi nüfuzunun ifadəsidir. Bu mundial ölkəmizdə böyük səbirsizliklə gözlənilir. Çünki bu, bizim azarkeşlərimiz üçün əsl bayram deməkdir". Orxan Məmmədov Bakıdakı mundialın özünəməxsus iz buraxacağını söyləyib: "Hazırda isə idman ölkəsi daha bir nüfuzlu yarışı - minifutbol üzrə dünya çempionatını qəbul etməyə hazırlaşır. Əlbəttə, çətinliklərin olması təbii haldır. Olduqca məsuliyyətli vəzifəni öhdəmizə götürmüşüksə, heç bir çətinlikdən çəkinməməliyik. Artıq hazırlıqların son mərhələsindəyik. Bu günə kimi hər şey plan üzrə davam edir. Azarkeşlər nəinki Milli Gimnastika Arenasında keçirilən möhtəşəm açılış mərasiminin və gözəl oyunların şahidi olacaqlar, həm də paralel olaraq, Bakı bulvarında keçiriləcək maraqlı və əyləncəli tədbirlərdə iştirak edə biləcəklər. İnanıram ki, Bakıdakı mundial dünya minifutbol tarixində özünəməxsus iz buraxacaq".

O.Məmmədov qısa müddətdə belə kütləviliyə nail olmağın sevindirici hal olduğunu vurğulayıb: "Bizim ölkədə böyük futbol qədər minifutbol da çox sevilir. Bu idman növünə maraq komandamızın Avropa çempionluğundan sonra daha da artıb. İndi bizim federasiyaya məxsus meydançalarımızda uşaqdan-böyüyə hər kəs minifutbol oynayır. Qısa müddətdə inanılmaz kütləviliyə nail olmaq bizi sevindirir. Azarkeşlərimiz isə bizi hər zaman dəstəkləyirlər. 2023-cü ilin may ayında Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirildi. Həmin yarışda müxtəlif ölkələrdən 10 komanda iştirak etdi. Bakı Tennis Akademiyasında keçirilmiş oyunlarda azarkeşlər millimizə möhtəşəm dəstək göstərdilər. Bu dəstək yığmamızın uğurlarına ciddi təsir etdi. Dünya çempionatında da onların güclü dəstəyini hiss edəcəyimizə əminəm.

Digər ölkələrdən olan azarkeşləri Bakıda görməkdən məmnun olacağıq. Bizim ölkəmiz olduqca qonaqpərvər məkandır. Ən əsası isə gözəl və tam təhlükəsiz ölkədir. Bütün azarkeşləri paytaxtımıza dəvət edirik. Onlar nəinki gözəl oyunların şahidi olacaq, həmçinin Azərbaycanın fərqli mədəniyyəti və insanları ilə tanış olmaq imkanı əldə edəcəklər. İnanıram ki, Bakıdakı dünya çempionatı onların yaddaşında ən unudulmaz mundiallardan biri kimi qalacaq. Komandaların hər birinə isə uğurlar arzulayıram".

***Elçin CƏFƏROV, "Azərbaycan"***



# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Ali etimad, yüksələn nüfuzun təcəssümü
Azərbaycan və Avropa Şurası arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb
Prezident İlham Əliyevin Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olub
Azərbaycan və Türkiyə regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarıdırlar
Azərbaycanın barış və sülh missiyası
Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmaq istəklərini Ermənistan qəribçiliyə salmasın
İlham Əliyevin uğur formulu
Bir "yaşıl enerji" dəhlizi isə başlanğıcını Naxçıvandan götürəcək
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Plastik tullantıların səbəb olduğu təhlükə

**Dünyanın ciddi ekoloji problemlərindən biri plastik tullantılardır. Təəssüf ki, gündəlik həyatımızda plastik materialdan istifadə etmədiyimiz sahə, demək olar ki, yoxdur. Plastik istifadəsinin iqtisadi üstünlükləri onun yayılmasını artıran əsas səbəblərdəndir. Bu məhsullar ucuz, yüngül və çoxfunksiyalıdır. Onların parçalanma müddəti isə yüz illərlə ölçülür.**



Plastik məhsullardan 1950-ci illərdən etibarən istifadə olunmağa başlanılıb. Həmin il plastik istehsalının həcmi 2,1 milyon ton olduğu halda sonradan artaraq təhlükəli həddə çatıb. Hazırda illik plastik material istehsalı 300 milyon tondan çoxdur. O zamandan indiyədək istehsal edilən plastik miqdarının təxminən 8,3 milyard ton olduğu güman edilir. Mütəxəssislər bildirirlər ki, 2050-ci ilə qədər bugünkü rəqəmlərə 33 milyard ton plastik əlavə ediləcək.

Tərkibində zəhərli maddələrin olması və ətraf mühitdə uzun illər yaşama qabiliyyəti plastik tullantılarını insan həyatı və ətraf mühit üçün böyük risk mənbəyinə çevirib. Bir tərəfdən, plastik materialların istehsalının sürətli templə artması, digər tərəfdən, bu materialların istehlakının günbəgün genişlənməsi nəticədə insan həyatı üçün təhlükə yaradır.

Təəssüf ki, dünyadakı plastiklərin, sadəcə, 20 faizi təkrar emal olunur. Plastik tullantılar torpaqda və suda yaşayan canlılar tərəfindən mənimsənilərək sonradan insanların qida zəncirinə daxil olur. Orqanizmdə təmas və ya qida yolu ilə toplanan mikroplastiklər immunitet sistemini zəiflədir, hormonal balansı pozur, ürək xəstəlikləri və xərçəng riskini artırır.

İngiltərənin təkrar emal şirkəti mikroplastiklərin insan dərisinə təsirini göstərmək üçün süni intellektlə dəstəklənən bir araşdırma aparıb. Tədqiqat aşağı, orta və yüksəksəviyyəli mikroplastiklərə məruz qalan kişi və qadınların üzlərində və bədənlərində baş verə biləcək dəyişiklikləri simulyasiya edib.

Araşdırma nəticəsində məlum olub ki, gündəlik həyatında qida, içki və hava vasitəsilə az miqdarda mikroplastik qəbul edən insanlar dəri quruluğu, qızartı və qıcıqlanma hiss edirlər. Tez-tez qablaşdırılması plastik olan emal edilmiş qidalar və dəniz məhsulları istehlak edən, neylon və polyester paltar geyən insanlar yağlı dəri, daha sürətli qocalma, qızartı gözlər və tənəffüs problemləri ilə qarşılaşırlar. Plastik istehsalı və ya tullantıların idarə edilməsi sahəsində çalışanlar, keyfiyyətsiz içməli su istehlak edənlər və daim sintetik paltar geyənlər isə ən yüksək risk qrupuna daxildirlər. Yüksək məruzqalma nəticəsində bu insanlarda dəri ləkələri, sağalmayan yaralar, dodaqlarda və barmaq uclarında göyərmələr, saç tökülmələri müşahidə edilir.

Mikroplastiklərin təsirləri təkcə dəri ilə məhdudlaşmır, həm də qana qarışaraq beyin, böyrək və plasenta kimi həyati orqanlara çatır. ABŞ-nin Nyu-Meksiko Universitetinin alimləri son 8 il ərzində insan beynindəki mikroplastik hissəciklərin miqdarının 50 faiz artdığını müəyyən ediblər. Bu nəticəyə gəlmək üçün tədqiqatçılar alın payından götürülmüş 52 beyin nümunəsini analiz ediblər.

Araşdırma nəticəsində beyindəki mikroplastik hissəciklərin konsentrasiyasının qaraciyər və böyrəklərlə müqayisədə daha yüksək olduğu aşkar edilib. Tədqiqat mikroskopik vizuallaşdırma və molekulyar analizlər vasitəsilə aparılıb, bunun sayəsində kimyəvi tərkib dəqiq müəyyən edilib. Ümumilikdə beyində 12 müxtəlif polimer, o cümlədən polietilen aşkarlanıb. Mütəxəssislər hesab edirlər ki, mikroplastikin əsas hissəsi insan orqanizminə qida, xüsusilə ət vasitəsilə daxil olur. Belə ki, araşdırma zamanı mağazalardan alınan ət məhsullarında yüksək miqdarda plastik aşkar edilib.

Mikroplastikə rast gəlinən ən qəribə qida isə heç kimin təxmin edəməyəcəyi, hər gün milyonlarla insanın istifadə etdiyi saqqızdır. O, yeni bir elmi araşdırmadan sonra narahatlıq mənbəyinə çevrilib. Böyük Britaniyanın Belfast Kraliça Universitetinin alimləri "avtomatlaşdırılmış Raman spektroskopiyası" adlı texnikadan istifadə edərək çeynəmə zamanı saqqızdan ayrılan hissəcikləri təhlil ediblər. Araşdırmaya görə, yalnız bir saat çeynəmə zamanı 251 min 244 mikroplastik hissəcik tüpürcəyə qarışır. Üstəlik, bu hissəciklərin əksəriyyəti ilk 20 dəqiqədə görünür.

Məlum olub ki, saqqızların əksəriyyətində uzun molekullardan ibarət polimerlər var. Bəzi markalar təbii polimerlərdən istifadə edərkən, digərləri plastikə bənzəyən sintetik polimerlərdən istifadə edirlər. Bəzi saqqızların tərkibində avtomobil şinlərində istifadə edilən stirol-butadien, plastik torbalarda olan polietilen və taxta yapışqan polivinil asetat kimi kimyəvi maddələr var.

Araşdırma çərçivəsində orta yaşlı bir kişi könüllü olaraq bir saat saqqız çeynəyib və hər iki dəqiqədən bir tüpürcək nümunəsi verib. Məlum olub ki, çeynəmənin ilk anlarında mikroplastiklər daha intensiv şəkildə özünü göstərib.

Hər insan gün ərzində ən azı bir neçə stəkan su içir. Çin alimləri içməli suda getdikcə daha çox aşkar edilən mikroplastikləri suyu qaynatmaqla azaltmağın mümkünlüyünü deyirlər. Tədqiqatçıların fikrincə, bu üsul mikro və nanoplastiklərin sudan çıxarılması üçün uzunmüddətli strategiya ola bilər. Quançjou Tibb Universiteti və Jinan Universitetindən olan bir qrup alim müxtəlif mineral konsentrasiyaları olan suya mikroplastik və nanoplastik əlavə edib və sonra suyu beş dəqiqə qaynadıb. Nəticələr suyun sərtliyindən asılı olaraq mikroplastiklərin əhəmiyyətli dərəcədə azaldığını müəyyən edib.

"Environmental Science & Technology Letters" jurnalında dərc edilən araşdırmaya görə, qaynama prosesi yumşaq suda nanoplastik nisbətini yüzdə 25 azaltdığı halda, çox sərt suda bu nisbət yüzdə 90 olub. Beləliklə, su nə qədər sərt olarsa, qaynama effekti bir o qədər yüksək olar. Tədqiqatçılar hesab edirlər ki, suyun qızdırıldığı zaman tərkibindəki kalsium karbonat kimi minerallar miqyas əmələ gətirir ki, bu da kiçik plastikləri əhatə edib tuta bilir. Buna görə də qaynadılmış suda əmələ gələn çöküntülər mikroplastikləri fiziki olaraq saxlaya bilir.

Tədqiqatda çöküntü ilə əmələ gələn mikroplastiklərin süzülməsi suyun qaynadılması qədər əhəmiyyətli bir addım olaraq göstərilir. Buna görə də plastik olmayan çaydanlar və paslanmayan polad filtrlərdən istifadə etmək tövsiyə olunur.

Plastik tullantılar üzrə mütəxəssislər bildirirlər ki, mikroplastiklərdən qorunmaq üçün birdəfəlik plastiklərin istifadə etməmək, su filtrlərindən yararlanmaq, üzvi qidaları seçmək və dəniz məhsulları istehlakını azaltmaq, neylon və polyester yerinə pambıq və yun paltarlara üstünlük vermək, plastik mətbəx qabları yerinə taxta qaşıq və şüşə qablardan istifadə etmək riskləri azaldır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Temperatur enəcək, leysan yağacaq

**Aprelin 15-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin fasilələrlə yağıntılı olacağı, şimşək çaxacağı, yağışın leysan xarakterli olacağı, arabir intensivləşəcəyi gözlənilir.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, güclü şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-10° isti, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 85-95 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-9° isti, gündüz 12-16° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-9° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygölün bəzi yerlərində havanın arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-9° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində havanın arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7° isti, bəzi dağlıq ərazilərdə 2°-dək şaxta, gündüz 7-12° isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 8-13° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində havanın arabir leysan xarakterli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 7-12° isti, dağlarda gecə 2-5°, gündüz 0-2° şaxta olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 12-16° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-9°, gündüz 9-14° isti, dağlarda gecə 2-4°, gündüz 4-6° isti olacağı proqnozlaşdırılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Qarabağ müharibə veteranı Rəzzaq Gözəlov Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanova qardaşı

**MAQSUD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı İlham Bağışova atası

**ÖTƏRXAN BAĞIŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3448**
**Sifariş 737**

**Qiyməti 60 qəpik**